**Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən 2025-ci ildə görülmüş işlər barədə Hesabat**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən irəli gələn vəzifələrin qlobal sosial-iqtisadi sahələrdə uğurla həyata keçirilməsində milli əqli mülkiyyət sisteminin çəkisi əhəmiyyətli dərəcədə artmışdır. "Azərbaycan-2030: milli inkişaf prioritetləri" və "2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası" adlı proqram sənədlərində qeyd olunduğu kimi, **yeni sosial-iqtisadi inkişaf modelinin əsasını yaradıcı sahibkar, səmərəli investisiyalar, innovasiyaları və rəqabətli bazarları dəstəkləyən əqli mülkiyyətin inkişafı təşkil edir.** Sənədlərdə xüsusi olaraq vurğulanır ki, intellektual fəaliyyətin, innovasiyaların və yaradıcılığın təşviqi əqli mülkiyyətə əsaslanan qeyri-maddi kapital dəyərinin yaradılması zəncirinin davamlı olaraq artırılmasında, habelə texnologiyalar, dizayn və brend formasında mühüm rol oynayır.

Bu baxımdan sənədlərdə əqli mülkiyyətin üstünlük təşkil etdiyi kreativ iqtisadiyyatın dəstəklənməsi və inkişaf etdirilməsi, yaradıcı mütəxəssislər və müasir rəqəmsal texnologiyalar arasında əlaqənin gücləndirilməsi, həmçinin peşə hazırlığının keyfiyyətinin yüksəldilməsi əsas prioritetlər sırasında müəyyən edilmişdir.

Qeyd edilən proqram sənədlərinə uyğun olaraq müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin stimullaşdırılması, ixtira və patent fəallığının artırılması, texnologiyaların kommersiyalaşdırılması və transferi, ixtira və faydalı modellərin beynəlxalq qeydiyyatının stimullaşdırılması, patentləşdirmə prosedurlarının sadələşdirilməsi və patentlərə əlçatanlığın asanlaşdırılması, patentlər üzrə beynəlxalq göstəricilər əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat sahələrinin müəyyən edilməsi hesabat ilində Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin (bundan sonra - **Agentlik**) diqqət yetirdiyi prioritet istiqamətlər olmuşdur.

Sahibkarlıq subyektlərinin əqli mülkiyyət hüquqlarının qorunması ilə bağlı fəal iş aparılmış və Azərbaycan məhsullarının "Made in Azerbaijan" brendinin hədəf bazarlarında təşviqi davam etdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən və müdrik strateji siyasətindən irəli gələn institusional islahatlar çərçivəsində əqli mülkiyyətin daim yeniləşən mahiyyətinə və yenidən dərk edilməsinə uyğun olaraq unikal idarəetmə qurumu kimi yaradılan Agentliyin fəaliyyətinin əsas istiqamətini hesabat ilində də ölkənin innovasiya siyasətinin həyata keçirilməsinə xidmət göstərilməsi təşkil etmişdir.

Milli əqli mülkiyyət institutunun fəaliyyət istiqamətləri yeni çağırışlara uyğun dəyişərək, daha mükəmməl və daha çevik idarəçilik funksiyaları ilə tamamlanmışdır. Onun konteksti və konseptual evolyusiyası Agentliyin yalnız xidməti sahə olması, əqli mülkiyyət obyektlərinin ekspertizası, onların qeydiyyatının aparılması və qorunma (mühafizə) sənədlərinin verilməsi ilə məhdudlaşmır. Bunlar eyni zamanda qorunmanın səmərəliliyi nəzərə alınmaqla analitik trendləri ölçən, bazarın rəqabət qabiliyyətinə təsir göstərən və bununla iqtisadi funksiyalar daşıyan, eləcə də qorunan obyektlərin sosial-mədəni hissəsini təhlil edən struktura və innovasiyaların fəal aktoruna çevrilmişdir.

Dünyanın 204 əqli mülkiyyət təşkilatları siyahısında Agentliyin strukturu və fəaliyyəti seçilmiş 15-lərin sırasındadır. Bu nailiyyətimiz Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) keçirdiyi sorğuya əsasən 2025-ci ildə nəşr olunan "Gələcəyə baxan liderlərin hesabatı"nda öz əksini tapmışdır. Hesabat dövlət qurumlarını, akademik dairələri, biznes sektoru və beynəlxalq təşkilatları təmsil edən 45-dən çox beynəlxalq ekspertlə aparılmış müsahibələrə əsaslanaraq hazırlanmışdır. ÜƏMT-nin Baş direktoru hesabatın hazırlanmasına dəstək verən tanınmış şəxslər sırasında Agentliyin İdarə Heyətinin sədrinin adını da qeyd etmişdir. ÜƏMT-nin hesabatında Cənubi Qafqaz və MDB regionlarından yalnız Azərbaycan nümayəndəsi təmsil olunmuşdur. Ölkəmizin bu sahədə təcrübəsinin MDB məkanında geniş yayılması məqsədilə

Agentliyin İdarə Heyətinin sədrinin Avrasiya Patent Təşkilatının sifarişi əsasında hazırladığı “Müasir əqli mülkiyyət ofisinin formalaşması və fəaliyyəti” adlı geniş məqalə Moskvada nəşr olunan nüfuzlu **“Əqli mülkiyyət: Sənaye mülkiyyəti”** jurnalında dərc olunmuşdur. Məqalədə dövlətimizin başçısının milli əqli mülkiyyət sisteminin inkişafına göstərdiyi böyük diqqət xüsusi vurğulanmış və prinsiplərə əsasən bu strukturun yaradılması innovativ addım kimi qiymətləndirilmişdir.

2025-ci ilin noyabr ayında Moskvada Rusiya Federasiyasının Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçiliyi Akademiyasında keçirilmiş II Beynəlxalq konfransda isə Azərbaycanın əqli mülkiyyət sahəsində idarəçilik forması nümunə kimi göstərilib və Azərbaycan təcrübəsindən yararlanmaq tövsiyə olunub.

**2. “Yaşıl patent”lər.** “Yaşıl” texnologiyaların ixtira və faydalı model kimi patentləşdirilməsi və onların qeydiyyata alınması prosedurlarının sürətləndirilməsi, bu sahədə ixtiraçılara dəstək göstərilməsi 2025-ci ildə də davam etdirilmişdir, nəticədə “yaşıl patent”lərin alınması ilə bağlı ixtiraya aid **6** və faydalı modelə aid **2** iddia sənədi daxil olmuşdur.

**3. Əqli mülkiyyət və süni intellekt.** Ölkə Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası”na uyğun olaraq iqtisadiyyat, dövlət idarəçiliyi, təhsil infrastrukturu və s. sahələrdə süni intellekt sistemlərinin tətbiqi üzrə işlər çərçivəsində Agentlik səlahiyyətləri daxilində müvafiq tədbirlərə başlayıb.

2025-ci il 7-11 aprel tarixlərində Cenevrə şəhərində keçirilən ÜƏMT-nin Müəlliflik hüququ və əlaqəli hüquqlar üzrə Daimi Komitəsinin 46-cı sessiyasında Agentliyin İdarə Heyətinin sədrinin Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələri adından **“Süni intellekt və müəlliflik hüququ”** mövzusunda məruzəsi dinlənilib**.** Məruzədə süni intellekt texnologiyalarının inkişafı fonunda meydana çıxan müasir hüquqi məsələlər, süni intellektin hüquq subyektliyi və onun tanınması problemləri, habelə bu sahədə görüləcək işlər geniş təhlil edilib.

Agentliyin tabeliyindəki Respublika Elmi-Texniki Kitabxanasında “**Süni intellekt və fizika**” mövzusu ilə maarifləndirici tədbir keçirilib və **1-7 oktyabr** tarixlərində Bakı Ekspo Mərkəzində keçirilmiş XI Beynəlxalq Kitab Sərgisi çərçivəsində süni intellelktə aid kitab və jurnalların sərgisi təşkil olunub.

**9-10 dekabr** tarixlərində Bakıda Agentliyin və ÜƏMT-nin birgə təşkilatçılığı ilə **“Əqli mülkiyyət və süni intellekt”** mövzusunda iki günlük beynəlxalq konfrans keçirilib. Konfransda əsas məruzəçi kimi Agentliyin İdarə Heyətinin sədri “Süni intellektin əqli mülkiyyətdə istifadəsi: riyazi köklərdən praktiki və fəlsəfi-hüquqi aspektlərədək” mövzusunda çıxış edib.

ÜƏMT-nin yüksək səviyyəli nümayədəsinin, Avrasiya Patent İdarəsinin prezidentinin, Koreya, Yaponiya və Fransa patent ofislərinin mütəxəssislərinin süni intellekt və əqli mülkiyyət siyasəti, süni intellekt ilə əlaqəli ixtiraların patentləşdirilməsi (süni intellekt vasitəsilə və süni intellekt tərəfindən yaradılan əqli mülkiyyət obyektləri predmetləri), patent sistemində süni intellektin alət kimi tətbiqi, ekspertiza və idarəetmə proseslərində süni intellektdən istifadə, süni intellekt üzrə əqli mülkiyyət siyasəti: patent müəllifliyi (ixtiraçılığı) və hüquq sahibliyi mövzularında məruzələri dinlənilib və müzakirələr keçirilib.

Bununla yanaşı, **süni intellektin praktiki tətbiqi** məqsədilə Avrasiya Patent İdarəsi ilə birlikdə patentləşdirmənin əsas proseslərinin avtomatlaşdırılmasına və intellektual dəstəklənməsinə yönəlmiş süni intellekt texnologiyalarının tətbiqi həllərinə dair işlər aparılıb və bütün həllər Agentliyin daxili informasiya sistemləri ilə inteqrasiya nəzərə alınmaqla hazırlanır.

**4. İnfrastrukturun təkmilləşdirilməsi və institusional dəyişikliklər** çərçivəsində bir neçə ildir ki, 24/7 rejimində fəaliyyət göstərən “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) rəqəmli informasiya sistemi daha da təkmilləşdirilib. Patentləşdirilmiş və qeydiyyata alınmış əqli mülkiyyət obyektlərinə dair məlumatlara (ixtiraçı, patent sahibi, ixtiranın, faydalı modelin və sənaye nümunəsinin adı, iddia sənədlərinin ilkinlik tarixləri, patentlərin qüvvədə olma müddətləri, əmtəə nişanlarının ilkinlik tarixləri, qeydiyyat tarixləri, qeydiyyat haqqında

şəhadətnamələrin verilmə tarixləri və qüvvədə olma müddətləri, hüquq sahibləri, coğrafi göstəricilərin qeydiyyata alındığı tarixlər və onlardan istifadəyə hüquqları olan hüquqi və ya fiziki şəxslər barədə və s. məlumatlar) əlçatanlığı təmin edən Sənaye Mülkiyyəti Obyektlərinin Reyestrinə ("Açıq reyestrlər"ə) **52300**-dən çox sənaye mülkiyyəti obyekti (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici) barədə məlumat daxil edilmişdir. Bu da şəffaflığın təmin olunması baxımından böyük əhəmiyyətə malikdir. Hər kəs "açıq reyestrlər"ə maneəsiz və ödəniş etmədən daxil olaraq patentlər və əmtəə nişanları barədə məlumatları əldə edə bilər.

Avrasiya Patent Təşkilatı (APT) ilə birgə PƏNAH rəqəmli informasiya sisteminin ÜƏMT-nin IPAS sisteminə inteqrasiya olunması üçün xüsusi layihə icra etmişdir.

APT ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən digər layihə Avrasiya patentlərinin alınması üçün iddia sənədlərinin verilməsinin avtomatlaşdırılması ilə bağlıdır. PƏNAH-ın Avrasiya Patent İdarəsinin Online (elektron) sisteminə inteqrasiyası nəticəsində Azərbaycanda yaşayan və fəaliyyət göstərən bütün iddaçılar Avrasiya patentinin alınması üçün iddia sənədlərini PƏNAH sistemi vasitəsilə Avrasiya Patent İdarəsinə göndərə biləcəklər.

Layihə MDB məkanında ilk olaraq Azərbaycanda icra olunur.

Beləliklə, PƏNAH rəqəmli informasiya sistemi vasitəsi ilə tətbiq edilən **"vahid pəncərə"** və **"istənilən yerdən xidmətə əlçatanlıq"** prinsipi açıqlığı, operativliyi və şəffaflığı təmin etmiş, əqli mülkiyyət üzrə göstərilən dövlət xidmətlərinin səmərəsini və səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltmişdir.

MDB məkanında ilk olaraq ixtira, faydalı model və sənaye nümunələrinə dair iddia sənədlərinin **3D formatında** qəbulu uğurla davam etdirilir.

Əqli mülkiyyət məsələlərinə dair müraciətlərin operativ qaydada obyektiv araşdırılması, cavablandırılması, iddiaçıların məlumatlandırılması və onlara məsləhət xidmətinin göstərilməsi, nəticədə vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə 2021-ci ildə yaradılmış **960 - "Çağrı Mərkəzi"**nə hesabat dövründə **23** minə yaxın müraciət daxil olmuşdur.

Müraciətlər əsasən ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları, müəllif hüquqları ilə bağlı olur.

KOB evində Agentliyi təmsil edən "Çağrı Mərkəzi"nin əməkdaşları sahibkarların əqli mülkiyyət hüquqları sahəsində bilgilərinin artırılmasında, onların müraciətlərinin və sorğularının yerində cavablandırılması, habelə zərurət yarandığı hallarda əmtəə nişanlarının qeydiyyatı ilə bağlı iddia sənədlərinin tərtib edilərək PƏNAH elektron sistemi vasitəsilə Agentliyə göndərilməsində iddiaçılara köməklik göstərirlər.

**5. Əqli mülkiyyət sahəsində normativ hüquqi baza.** Əqli mülkiyyətin ölkənin sosial - iqtisadi inkişafında əhəmiyyəti nəzərə alınaraq 2025-ci ildə bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilib. Ölkəmizin ÜƏMT-nin "Patent hüququ Müqaviləsi"nə qoşulmasını təmin etmək məqsədilə "Patent haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə Agentlik tərəfindən hazırlanmış Qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilmişdir. Qanun layihəsinin qəbul edilməsi nəticəsində ixtira və patent fəallığıyüksələcək; patent alınması ilə bağlı prosedurlar sadələşdiriləcək, iddia sənədlərinin ekspertiza müddəti əhəmiyyətli dərəcədə azalacaq; ixtira, faydalı model və sənaye nümunəsinin müəlliflərinə ödənilməli olan qonorarın məbləği artacaq.

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi hazırlanaraq rəy və təkliflərin bildirilməsi üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə aparılan işlər çərçivəsində "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununa, Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş "Patentin alınması barədə iddia sənədinə aid Tələblər"də dəyişikliklər aparılmış, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında" Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli Qərarının 10 nömrəli əlavəsi yeni redaksiyada

verilmiş, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 aprel tarixli 565 nömrəli Sərəncamı ilə Əqli Mülkiyyət Agentliyi Müstəqil Dövlətlər Birliyinin Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şurasında Azərbaycan Respublikası tərəfindən səlahiyyətli qurum müəyyən edilmişdir.

**23 aprel tarixində** "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə Çin Xalq Respublikasının Milli Əqli Mülkiyyət Administrasiyası arasında Anlaşma Memorandumu" imzalanmışdır.

**21 oktyabr tarixində** "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Sazişi Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Qazaxıstanın ədliyyə naziri Yerlan Sersembayev mübadilə ediblər.

Hesabat ilində aidiyyəti üzrə rəy və təkliflərin bildirilməsi üçün Agentliyə daxil olmuş **30-a** yaxın qanunvericilik aktlarının layihəsinə baxılaraq, onlara münasibət bildirilmişdir.

**6. Əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.** Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əqli mülkiyyət hüququ kafedrasının və Azərbaycan Memarlıq və İnşaat Universitetində Əqli mülkiyyət kafedrasının Agentliyin nəzdində fəaliyyət göstərən filiallarının işinin gücləndirilməsi hesabat ilində də diqqət mərkəzində saxlanılmışdır.

Agentliyin **30-dək** mütəxəssisi universitetlərdə əqli mülkiyyətin müxtəlif istiqamətləri üzrə kadr hazırlığı işinə cəlb olunmuşdur. Bakı Dövlət Universitetində "Əqli mülkiyyət hüququ" fənni, Azərbaycan Memarlıq və İnşaat Universitetində isə **8** istiqamət üzrə əqli mülkiyyətə aid fənlər tədris olunur. 2025-ci ildə Agentlikdə **10** tələbə magistr dissertasiyalarını uğurla müdafiə etmişdir.

Agentliyin Aparatının və tabeliyində olan qurumların **8** nəfər əməkdaşı ÜƏMT Akademiyasının distant təhsil və ixtisasartırma kurslarında iştirak edərək ixtisaslarını artırmışlar.

2025-ci ildə **6** ali məktəbdə (Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Texniki Universiteti, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Bakı Ali Neft Məktəbi) müəllimlər, elmi-tədqiqat institutlarının mütəxəssisləri, o cümlədən ixtiraçılar, tələbələr və digər maraqlı şəxslər üçün ixtiraçılıq və patent analitikası, patent ailələri, sənaye mülkiyyəti obyektlərinin ekspertizası və patentləşdirilməsi, ixtira fəaliyyətinin stimullaşdırılması, texnologiyaların kommersiyalaşdırılması və transferi mövzularında seminar və təlimlər keçirilmişdir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilati dəstəyi ilə Lənkəran və Siyəzən rayonlarında sahibkarlarla keçirilən maarifləndirici görüşlərdə isə əmtəə nişanları və coğrafi göstəricilərin qeydiyyatı, qorunma müddətləri, hüquqların ötürülməsi, onlardan qanuni istifadənin hüquqi əsasları və qeyri-qanuni istifadə hallarının qarşısının alınması sahəsində Agentliyin səlahiyyətləri daxilində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi və Əqli Mülkiyyət Agentliyinin iştirakı ilə "Hüquqi Tədqiqatlar Mərkəzi" İctimai Birliyi tərəfindən "Əqli mülkiyyət hüququ sahiblərinin müdafiə potensialının artırılması" layihəsi çərçivəsində Bakı və Gəncə şəhərlərində, Qazax və Zaqatala rayonlarında müəllif və hüquq sahiblərinin öz hüquqlarını bilməsi, onlara məxsus olan əqli mülkiyyətin qorunması, habelə digər şəxslər tərəfindən hüquqlarının pozulmaması üçün nə etməli olduqlarını bilmələri məqsədilə "Əqli mülkiyyət hüququ nədir və onu necə qorumalı" mövzusunda təlimlər keçirilmişdir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə sahibkarların məlimatlandırılması məqsədilə aşağıdakı tədbirlər keçirilmişdir:

- 2025-ci il 16 may tarixində Lənkəran – Astara iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlar və dövlət qurumu nümayəndələri arasında "Sahibkarların dövlətin dəstək mexanizmləri barədə məlumatlandırılması" mövzusunda;
- 2025-ci il 22 may və tarixlərində Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlar və dövlət qurumu nümayəndələri arasında "Sənaye sahəsində mövcud imkanlar, çətinliklər və perspektivlər" mövzusunda;

- 2025-ci il 10 iyul tarixində Abşeron rayonunda fəaliyyət göstərən sahibkarlar və dövlət qurumu nümayəndələri arasında “Reklam bazarında mövcud imkanlar, çətinliklər və perspektivlər” mövzusunda.

Hökumət Evində yerləşən “Vətəndaşların Qəbul Mərkəzi”ndə Agentliyin nümayəndəsi təmsil olunur. Mərkəzə müraciət edən müəlliflərin əsərlərinin qeydiyyatdan keçirilməsinə köməklik göstərilmiş və müəlliflik hüquqlarının qorunması ilə bağlı onlara məsləhətlər verilmişdir.

2025-ci ildə Agentlik tərəfindən K.İmanovun müəllifliyi ilə Azərbaycan, ingilis və rus dillərində **10** kitab və broşur nəşr olunaraq ixtiraçılar, patent sahibləri, müəlliflər, hüquqşünaslar, tədqiqatçılar, tələbələr və əqli mülkiyyətlə maraqlanan digər şəxslər arasında pulsuz paylanılmışdır.

Hesabat ilində **50-dək** press-reliz və **20** poster hazırlanıb. Elektron və yazılı mediada **70-dək** informasiya, maarifləndirici və təbliğat xarakterli məlumatlar dərc olunub, TV kanallarında əqli mülkiyyət sahəsinə aid **20-dək** süjet göstərilib.

Agentliyin sosial media (Facebook, Instagram, Youtube, X, Linkedin) hesabları üzərindən **250-ə** yaxın paylaşım edilib.

**“Xalq qəzeti”**nin 2025-ci il 13 noyabr tarixli nömrəsində **“Azərbaycanın əqli mülkiyyət sahəsində dövlət siyasəti örnək göstərildi”** başlıqlı geniş məqalə dərc olunub. Məqalədə əqli mülkiyyətin idarəçiliyi sahəsində Azərbaycan təcrübəsi və bu təcrübənin digər ölkələrdə yayılması barədə Avrasiya Patent İdarəsinin prezidentinin təklifləri qeyd edilmişdir.

Azərbaycan təcrübəsi Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) keçirdiyi sorğuya əsasən 2025-ci ildə nəşr olunan “Gələcəyə baxan liderlərin hesabatı”nda da öz əksini tapmışdır. Hesabat dövlət qurumlarını, akademik dairələri, biznes sektoru və beynəlxalq təşkilatları təmsil edən 45-dən çox beynəlxalq ekspertlə aparılmış müsahibələrə əsaslanaraq hazırlanmışdır.

ÜƏMT-nin Baş direktoru hesabatın hazırlanmasına dəstək verən tanınmış şəxslər sırasında Agentliyin İdarə Heyətinin sədrinin adını da qeyd etmişdir. ÜƏMT-nin hesabatında Cənubi Qafqaz və MDB regionlarından yalnız Azərbaycan nümayəndəsi təmsil olunmuşdur.

Agentliyin 960 - “Çağrı Mərkəzi” vasitəsilə də qeyri-hökumət təşkilatlarından, o cümlədən ictimai birliklərdən müraciətlər, təklif və rəylər daxil olur. Qeyri-hökumət təşkilatları ilə əlaqələrin yaradılmasında “Çağrı Mərkəzi”nin imkanlarından da geniş istifadə olunur. Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın nəzdində yaradılmış Agentliyin rəhbərlik etdiyi “Əqli mülkiyyət məsələləri üzrə Xüsusi İşçi Qrupu” tərəfindən beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasına və əqli mülkiyyətlə əlaqəli sahələr barədə məlumatlılığın artırılmasına dəstək davam etdirilmiş, Komissiya tərəfindən əqli mülkiyyət məsələlərinə dair digər işçi qrupları arasında koordinasiya işi aparılmış, habelə onların ÜƏMT-nin müvafiq aidiyyəti strukturları ilə əlaqələri təşkil edilmişdir.

**7. Beynəlxalq reytinq.** **139** ölkənin iqtisadiyyatını əhatə edən və innovasiya fəaliyyətinin potensialı, səmərəliliyi və çərçivə şərtlərinə dair təxminən **80** indikator-göstərici əsasında ABŞ-ın Portulans İnstitutu və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən birgə tərtib edilmiş **“Qlobal İnnovasiya İndeksi - 2025”** sentyabrın 16-da dərc olunmuşdur. Qeyd edək ki, **“**Qlobal İnnovasiya İndeksi” (Qİİ) hesabatı 2007-ci ildən nəşr olunur və 2025-ci ildə sayca 18-ci nəşri işıq üzü görmüşdür. Qİİ hesabatı ölkələr üçün innovasiya fəaliyyətinin qiymətləndirilməsində, siyasətlərin təkmilləşdirilməsində və onların effektivliyinin artırılmasında qiymətli istinad mənbəyi sayılır.

“Qlobal İnnovasiya İndeksi - 2025”də Azərbaycan “Mənşəyinə görə patent müraciətləri” indikator-göstəricisi üzrə **57-ci** yerdədir. Bu göstərici üzrə Moldovanı (**64-cü yer**), Tacikistanı (**77-ci yer**) və Ermənistanı (**79-cu yer**) qabaqlayırıq (qeyd edilən indikator-göstərici üzrə **Azərbaycan və Gürcüstan 53-58-ci** yerlər qrupunda qərarlaşaraq Cənubi Qafqazda liderliyi bölüşürlər).

“Mənşəyinə görə faydalı modellər” və ya “kiçik patentlər” indikator-göstəricisi üzrə **38-ci** pilləni tutmuşuq.

Hesabatda müvafiq alt-indekslər üzrə ölkəmizə aid verilmiş məlumatlar, Azərbaycanın tutduğu yerlər, o cümlədən güclü və zəif tərəflər, habelə əqli mülkiyyətlə bağlı mövqelərimiz digər ölkələrlə müqayisəli şəkildə Əqli Mülkiyyət Agentliyi tərəfindən təhlil edilmişdir. Nəticələr "Əqli Mülkiyyət üzrə Xüsusi işçi qrupu" üzvlərinin və İqtisadiyyat Nazirliyinin müvafiq işçi qruplarının səlahiyyətli nümayəndələrinin iştirakı ilə sentyabrın **16-da** keçirilən iclasda geniş müzakirə olunmuşdur.

İqtisadiyyat nazirinin 1-ci müavini, Komissiyanın nəzdində fəaliyyət göstərən Qlobal İnnovasiya İndeksi üzrə əlaqələndirmə qrupunun rəhbəri Elnur Əliyev Agentliyə 2025-ci il 14 oktyabr tarixli məktubla müraciət edərək ölkəmizin müvafiq dövlət qurumları tərəfindən müəyyən edilmiş müddətlərdə ÜƏMT-nin metodologiyasına uyğun təqdim edilmiş statistik və analitik məlumatların hesabatda nəzərə alınmamasının səbəblərinin müəyyənləşdirilməsi, eləcə də gələcəkdə belə halların təkrarlanmaması üçün effektiv kommunikasiya mexanizminin yaradılması məqsədilə ÜƏMT ilə görüşün təşkilinə köməklik göstərilməsini xahiş etmişdir. Bununla əlaqədar Agentlik ÜƏMT ilə müzakirələr aparmış və 2026-cı ilin yanvar ayında görüşün keçirilməsi barədə razılıq əldə olunmuşdur.

Dövlət Statistika Komitəsi 2025-ci ilin dekabrında ÜƏMT-yə məktubla müraciət edərək QİI-nin 5.1.1, 5.1.2, 5.1.4, 5.1.5 və 5.1.5 alt-indekslər üzrə Azərbaycana dair məlumatların Beynəlxalq Əmək Təşkilatına və UNESCO-nun Statistika İnstitutuna təqdim edilməsinə baxmayaraq, hesabatda dərc edilmədiyini bildirmiş, statistik məlumatların ilk mənbədən əldə edilməsi üçün əlaqələrin qurulmasını xahiş etmişdir. ÜƏMT bu sahədə koordinasiyanın təmin edilməsi məqsədilə Dövlət Statistika Komitəsinin müraciətini Əqli Mülkiyyət Agentliyinə göndərmişdir. Agentliyin apardığı iş nəticəsində ÜƏMT-nin mütəxəssisləri ilə görüşün keçirilməsi, formatı, vaxtı və iştirakçıların tərkibi razılaşdırılmışdır.

"Əqli mülkiyyət məsələləri üzrə Xüsusi İşçi qrupu"nun apardığı koordinasiya işinin nəticəsi olaraq **2026-cı il yanvarın 16-da** Əqli Mülkiyyət Agentliyinin, İqtisadiyyat Nazirliyinin və Dövlət Statistika Komitəsinin rəhbərlik etdikləri işçi qruplarında təmsil olunan aidiyyəti struktur bölmələrin nümayəndələrinin ÜƏMT-nin İqtisadiyyat və statistika bölməsi rəhbərinin və həmin bölmənin mütəxəssislərinin on-layn rejimdə görüşünün keçirilməsi qərara alınmışdır.

**8. Patent analitikası və ölkənin texnoloji profili (landşaftı).** Hesabat ilində Agentlik tərəfindən patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat istiqamətlərinin müəyyən edilməsi və texnologiyanın inkişaf səviyyəsinin qiymətləndirilməsi işi davam etdirilmişdir.

Qeyd edilməlidir ki, ölkənin elmi-texnoloji prioritetlərinin seçimi, texnoloji inkişafının drayverlərinin müəyyənləşdirilməsi, mövcud milli, elmi-texnoloji potensialı və ölkə rəqabətqabiliyyətliliyi patent statistikası və patent portfelinin strukturu və istiqamətləri vasitəsilə əsaslandırıla bilər. Bu növ araşdırmalar ilk növbədə ölkənin texnoloji profilinin müəyyən edilməsindən başlanır (araşdırma ixtiralara aid patentlər əsasında aparılır).

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın müvafiq müddəaları ("3.2.1. Fəaliyyət istiqaməti: "İnnovasiya ekosisteminin inkişafı" Tədbir və layihələrin 6-cı "Patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat istiqamətlərinin müəyyən edilməsi və texnologiya inkişaf səviyyəsinin qiymətləndirilməsi" bəndi) nəzərə alınmaqla qüvvədə olan ixtira patentlərinin SWOT analizi aparılmış və beynəlxalq təsnifatlara uyğun Azərbaycan üzrə patent landşaftı tərtib olunmuşdur. Analizin nəticələri ölkədə 2024-cü ildə rezidentlərin qüvvədə olan ixtira patentlərinin böyük hissəsinin ÜƏMT-nin Beynəlxalq Patent Təsnifatı üzrə "Kimya və metallurgiya" bölməsinə - 159 və ya 42.8%, "Tikinti və dağ-mədən işi" bölməsinə 58 və ya 15.6%, "İnsanın həyati tələbatlarının təmin edilməsi" bölməsinə 55 və ya 14.8%, "Fizika" bölməsinə" 34 və ya 9.2% aid olduğu müəyyən edilmişdir. Təhlilin nəticələri aşağıdakı **cədvəldə verilib:**

## 2024-cü ildə Azərbaycanda rezidentlərin qüvvədə olan ixtira patentlərinin “Beynəlxalq Patent Təsnifatı” bölmələri və sinifləri üzrə paylanması

| Bölmə | Siniflər | İxtiraların sayı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Milli ofis | Avrasiya Patent Təşkilatı |
| A. İnsanın həyati tələbat-larının təmin edilməsi | Kənd təsərrüfatı | 16 | 13 | 3 |
| | Qida məhsulları; tütün | 1 | 1 | - |
| | Şəxsi və ev əşyaları | - | - | - |
| | Səhiyyə; xilasetmə xidməti; əyləncə | 38 | 19 | 19 |
| B. Müxtəlif tex-noloji proseslər, nəqletmə | Ayırma; qarışdırma | 10 | 8 | 2 |
| | Formalaşma (təşəkkül) | 4 | 3 | 1 |
| | Poliqrafiya | 1 | 1 | - |
| | Nəqletmə | 5 | 2 | 3 |
| | Mikrostruktur texnologiyaları; nano-texnologiyalar | 6 | 5 | 1 |
| C. Kimya və metallurgiya | Kimya | 147 | 125 | 22 |
| | Metallurgiya | 12 | 9 | 3 |
| | Kombinasiya edilmiş texnologiya | - | - | - |
| D. Toxuculuq və kağız | Digər siniflərə aid olmayan toxuculuq və ya oxşar elastik materiallar | 3 | 3 | - |
| | Kağız | - | - | - |
| E. Tikinti və dağ-mədən işi | Tikinti | 8 | 1 | 7 |
| | Torpaq və ya dağ süxurların qazıntısı; mədən işi | 50 | 21 | 29 |
| F. Maşınqayırma; işıqlandırma; isitmə; silah və döyüş sursatı; partlatma işləri | Mühərrik və ya nasoslar | 11 | 9 | 2 |
| | Ümumi maşınqayırma | 5 | 3 | 2 |
| | İşıqlandırma; istitmə | 6 | 3 | 3 |
| | Silah və döyüş sursatı; partlatma işləri | 1 | 1 | - |
| G. Fizika | Cihazlar | 31 | 22 | 9 |
| | Nüvə fizikası və texnikası, və əlaqəli elm sahələri | 3 | 3 | - |
| H. Elektrik | Elektrik | 13 | 13 | - |
| Yekun | | 371 | 265 | 106 |

**9. Ümumi Daxili Məhsulda (ÜDM) kreativ sənayenin payı.** Azərbaycanın Ümumi Daxili Məhsulunda (ÜDM-də) müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan sənayenin (kreativ industriyanın) payı 2003-cü ildən başlayaraq Agentlik (o vaxt Müəllif Hüquqları Agentliyi) tərəfindən araşdırılır, nəticələr təhlil olunur və hər il müvafiq hökumət strukturlarına çatdırılır.

Azərbaycanın fəaliyyəti və qazandığı təcrübə ÜƏMT tərəfindən dəstəklənir. Hələ 2024-cü il 2-3 dekabr tarixlərində Bakıda Agentliyin və ÜƏMT-nin birgə təşkilatçılığı ilə “Kreativ iqtisadiyyat: data modeli, ölçülməsi və əqli mülkiyyət” mövzusunda beynəlxalq regional seminar keçirilmişdir.

ÜƏMT-nın yeni CEDM - kreativ İqtisadiyyatın Data (məlumat) modelinin tətbiqinə dair pilot layihəsinin icrasına başlayan ilk ölkələr sırasına ölkəmiz də qoşulmuşdur. ÜƏMT-nin Müəllif hüquqları və kreativ sənayelər bölməsinin direktor müavini Dimiter Qançevin rəhbərlik etdiyi nümayəndə heyətinin, habelə Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan əqli mülkiyyət ofislərinin nümayəndələrinin iştirakı ilə kreativ iqtisadiyyatın aktual məsələlərin müzakirəsinə həsr olunmuş tədbirdə irəli sürülən təkliflər bu gün də öz aktuallığını saxlayır.

Müəllif-hüquq sisteminin mühüm inteqrativ (cəm) göstəricisi olan kreativ sənayenin ÜDM-dəki payı 2025-ci ildə də ölkənin milli iqtisadiyyatının strukturu və statistikası nəzərə alınmaqla ÜƏMT-nin müvafiq Metodiki Tövsiyələrinə uyğun araşdırılmış, həmçinin ölkənin rəsmi statistika materiallarından, dövlət büdcəsinin hesabat göstəricilərindən və ekspert qiymətləndirmələrindən istifadə olunmuşdur.

Hesablamalara görə kreativ sənayenin ÜDM-dəki payının həcmi 2025-ci il 1 yanvar tarixinə **6875,9 mln. manat** olmuşdur ki, bu da 2024-cü illə müqayisədə **3,9%** çoxdur.

Beləliklə, 2025-ci ilin 1 yanvar tarixinə olan vəziyyətə görə ölkənin ÜDM-də kreativ sənayenin payı **5,3%** (2024-cü il 1 yanvar tarixinə **5,2%**) təşkil edir ki, bu da inkişaf etmiş ölkələr səviyyəsindədir.

ÜƏMT metodiki tövsiyələrə müvafiq olaraq müəllif hüququna əsaslanan kreativ sənaye sahələri **dörd qrupda cəmləşir:**

- əsas müəllif hüququ sahələr;
- qarşılıqlı asılılıq münasibətlərində olan sahələr;
- müəllif hüququna qismən əsaslanan sahələr;
- köməkçi sahələr.

Kreativ sənayenin dörd qrupu arasında əsas müəllif hüququ sahələri qrupu ölkə ÜDM-də ən böyük hissəni təşkil edir - **2,9%.**

**Kreativ sənaye qruplarının ölkə ÜDM-da payı** (%)




Kreativ sənayenin dörd qrupu arasında əsas müəllif hüquqlarının sənaye qrupu həcminə görə də ən böyükdür və 53,5%-ni təşkil edir.

### Kreativ sənaye qruplarının nisbəti




Əsas müəllif hüquqlarının sənaye qrupuna aşağıdakı alt qruplar daxildir: çap və ədəbiyyat; teatr və opera; kino və video; radio və televiziya; fotoqrafiya, elm, ali təhsil, proqram təminatı; vizual və qrafika; reklam; müəllif hüquqları üzrə cəmiyyətlər və s.

### Əsas müəllif hüquqlarının sənaye qrupunun strukturu




Öz növbəsində, əsas müəllif hüquqlarının sənaye qrupunda ən böyük pay “elm, ali təhsil, proqram təminatı və s.” sahəsinə düşür - 57,1%, daha sonra “mətbuat və ədəbiyyat” - 22,3%, və s.

**10. Əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması**. “İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə PCT beynəlxalq sistemi vasitəsilə **1** (bir) ixtiranın və **1** (bir) faydalı modelin patentləşdirilməsi üçün beynəlxalq iddia sənədlərinin Agentlik vasitəsilə ÜƏMT-nin Beynəlxalq Bürosuna verilməsi, Beynəlxalq Axtarış Orqanı tərəfindən axtarışın aparılması, o cümlədən iddia sənədinin və beynəlxalq axtarış hesabatının dərc edilməsinə görə iddiaçılar tərəfindən çəkilən xərclərin (sübutedici sənədlər əsasında) 50 (əlli) faizi 2025-ci ildə dövlət büdcəsindən maliyyələşdirilmişdir.

Maliyyəlşdirilən sənaye mülkiyyəti obyektləri və hüquq sahibləri barədə məlumatlar aşağıda verilir:

**1.** "Üç fazalı sonsuzluq sarğıları" (PCT/AZ2024/000003) adlı ixtiranın hüquq sahibi Azad Əlsoltan oğlu Sultanzadə tərəfindən həmin ixtiranın Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə patentləşdirilməsi üçün 2024-cü ildə ödədiyi *(beynəlxalq faza iddia sənədinin verilməsi üçün 30 AZN, beynəlxalq faza iddia sənədinin ÜƏMT-nin Beynəlxalq Bürosuna göndərilməsi üçün 10 AZN, beynəlxalq iddia sənədinin verilməsi üçün 156,2 USD və axtarışın aparılması üçün 9000 RUB)* 497.39 (dörd yüz doxsan yeddi manat, 39 qəpik) məbləğində vəsaitin 50 (əlli) faizi, yəni 248.70 manat (iki yüz qırx səkkiz manat, 70 qəpik) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk üç il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası"na uyğun olaraq, 2025-ci ildə dövlət büdcəsindən Əqli Mülkiyyət Agentliyinə bu məqsəd üçün ayrılmış vəsait hesabına maliyyələşdirilməsi barədə İdarə Heyəti tərəfindən müvafiq qərar qəbul edilmişdir.

**2.** "Dializ üçün mobil qurğu" (PCT/AZ2024/000005) adlı faydalı modelin hüquq sahibi Hikmət İbrahim oğlu İsmayılov tərəfindən həmin ixtiranın Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə patentləşdirilməsi üçün 2024-cü ildə ödədiyi *(beynəlxalq faza iddia sənədinin verilməsi üçün 30 AZN, beynəlxalq faza ilk iddia sənədinin ÜƏMT-nin Beynəlxalq Bürosuna göndərilməsi üçün 10 AZN, beynəlxalq iddia sənədinin verilməsi üçün 145,7 USD və axtarışın aparılması üçün 9000 RUB)* 486.36 (dörd yüz səksən altı manat, 36 qəpik) məbləğində vəsaitin 50 (əlli) faizi, yəni 243.18 manat (iki yüz qırx üç manat, 18 qəpik) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk üç il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası"na uyğun olaraq, 2025-ci ildə dövlət büdcəsindən Əqli Mülkiyyət Agentliyinə bu məqsəd üçün ayrılmış vəsait hesabına maliyyələşdirilməsi barədə İdarə Heyəti tərəfindən müvafiq qərar qəbul edilmişdir.

**11. Sənaye mülkiyyəti sahəsində dövlət xidmətləri.** Hesabat ilində ixtiralara dair iddia sənədlərinin mənşə ölkələri üzrə; ixtiraların qeydiyyatı, patent sahibinin mənşə ölkəsi üzrə; iddia sənədlərinin verilmə tarixləri üzrə; qüvvədə olan ixtiralar və faydalı modellərin iddia sənədlərinin mənşə ölkələri üzrə; faydalı modellərin qeydiyyatı, qüvvədə olan faydalı modellər, sənaye nümunələrinin iddia sənədlərinin mənşə ölkələri üzrə; iddia sənədlərinin təsnifat sinifləri üzrə; sənaye nümunələrinin qeydiyyatı, siniflər üzrə; sənaye nümunələrinin qeydiyyatı, qüvvədə olan sənaye nümünələri, qeydiyyat illəri üzrə; əmtəə nişanlarına dair iddia sənədlərinin Əmtəə və xidmətlərin Beynəlxalq Nitsa təsnifatının sinifləri üzrə; əmtəə nişanına dair iddia sənədlərinin mənşə ölkələri üzrə; mənşə ölkələri üzrə kollektiv və sertifikasiya nişanları üzrə; prosedur qaydaları üzrə; əmtəə nişanlarının qeydiyyatı; qüvvədə olan əmtəə nişanları; qüvvədə olan kollektiv əmtəə nişanları və onların qeydiyyat illəri üzrə; coğrafi göstəricilərin iddia sənədlərinin sayı üzrə hesabatlar ÜƏMT-yə təqdim edilmişdir.

2025-ci ildə ixtira, faydalı model və sənaye nümunəsinin patentləşdirilməsinə dair Agentliyə **481** iddia sənədi (2024-cü ildə **349** iddia sənədi), o cümlədən ixtiraya aid **282** (2024-cü ildə **204**), faydalı modelə aid **77** (2024-cü ildə **69**), sənaye nümunəsinə aid **65** (2024-cü ildə **37**) və Avrasiya patentinin alınması üçün **57** (2024-cü ildə **39**) iddia sənədi daxil olmuşdur. Beləliklə, patentlərin alınması ilə bağlı daxil olmuş iddia sənədlərinin sayı 2024-cü illə müqayisədə 2025-ci ildə ixtira üzrə - **38.2%,** faydalı model üzrə - **11.6%**, sənaye nümunəsi üzrə **76%**, Avrasiya patenti üzrə - **46%** artmışdır ki, bu da ümumilikdə 2024-cü illə müqayisədə **37.8%** çoxdur (Cədvəl 1-də illər üzrə ixtira fəallığına dair məlumatlar verilmişdir):

*Cədvəl 1*

**İxtira, faydalı model və sənaye nümunələrinə patent alınması üçün 2024-2025-ci illərdə daxil olan iddia sənədlərinin sayı (sənaye mülkiyyəti obyektlərinin növləri üzrə ixtira fəallığı)**




*Cədvəl 2*

**2023-2024-2025-ci illərdə ixtira fəallığı**
*(İxtira, faydalı model və sənaye nümunələrinə patent alınması üçün daxil olmuş iddia sənədlərinin ümumi sayı)*




PCT beynəlxalq sistemi vasitəsilə patent alınması məqsədilə ÜƏMT-nin Beynəlxalq Bürosuna göndərilməsi üçün ixtira və faydalı modelə aid **20** (2024-cü ildə **8**) iddia sənədi daxil olmuşdur.

2025-ci ildə **214** patent (2024-cü ildə 185), o cümlədən ixtiraya dair **137** (2024-cü ildə **128**), faydalı modelə aid **57** (2024-cü ildə **43**) və sənaye nümunələrinə aid **20** (2024-cü ildə **14**) patent verilib ki, bu da 2024-cü illə müqayisədə **15.7%** çoxdur (Cədvəl 2).

*Cədvəl 3*

**2023-2024-2025-ci illərdə patent fəallığı**

*(İxtira, faydalı model və sənaye nümunələrinə verilən patentlərin sayı)*




Beləliklə, 2025-ci ildə ixtira fəallığı 2024-cü illə müayisədə **37,8%**, patent fəallığı isə **15,7%** artmışdır.

Əmtəə nişanlarının qeydiyyatı ilə bağlı daxil olan iddia sənədlərinin sayı **4196** (2024-cü ildə 3880) olmuşdur **(cədvəl 4):**

*Cədvəl 4*

**Əmtəə nişanlarının qeydiyyatı ilə bağlı daxil olan iddia sənədlərinin sayı (2023-2024-2025-ci illər üzrə)**




Əmtəə nişanlarının beynəlxalq mühafizəsinə dair Madrid Sazişi və ona dair Protokol üzrə Azərbaycan Respublikasında mühafizə verilməsi üçün **3362** bildiriş daxil olmuşdur.

**12. Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı.** 2025-ci ildə sənaye mülkiyyəti sahəsində qüvvədə olan qanunvericiliyə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq saziş və müqavilələrə uyğun olaraq sənaye mülkiyyəti obyektlərinin dövlət qeydiyyatı, müvafiq mühafizə sənədlərinin verilməsi, onların qüvvədə saxlanılması, sənaye mülkiyyəti obyektlərinin dövlət reyestrinin aparılması, dövlət reyestrində və şəhadətnamədə qeydiyyatla bağlı məlumatlarda dəyişikliklərin edilməsi və müvafiq bildirişlərin verilməsi, dublikatların verilməsi, reyestr məlumatlarından çıxarışların verilməsi, sənaye mülkiyyəti obyektləri üzrə hüquqların digər şəxslərə verilməsinə dair müqavilələrin, istifadə hüququnun

verilməsi ilə bağlı lisenziya müqavilələrinin qeydiyyatına dair işlər həyata keçirilmiş, ÜƏMT, Avrasiya Patent İdarəsi və bir sıra xarici ölkələrin patent struktrurları ilə əməkdaşlıq davam etdirilmişdir.

Sənaye mülkiyyəti obyektlərinin növləri üzrə məlumatlar aşağıdakı cədvəllərdə verilmişdir:

**a) İxtiralar.** 2025-ci il ərzində müvafiq Dövlət reyestrində **ixtiralara dair 137** patent qeydiyyata alınıb, onlardan **111-i** milli, **26-ı** isə xarici hüquqi şəxslərə məxsus olmuşdur (2023-cü ildə 103 (87 milli, 16 xarici), 2024-cü ildə 128 (97 milli, 31 xarici):




| Ölkələr | Ölkənin kodu | İxtiralara dair patentlərin sayı |
|---|---|---|
| | | 2025 |
| Azərbaycan Respublikası | AZ | 111 |
| Türkiyə | TR | 1 |
| ABŞ | US | 9 |
| İsveçrə | CH | 3 |
| İtaliya | IT | 1 |
| Qatar | QA | 2 |
| Fransa | FR | 2 |
| İsrail | IL | 1 |
| Niderland | NL | 3 |
| Rusiya Federasiyası | RU | 2 |
| Almaniya | DE | 2 |
| Cəmi | | 137 |

**b) Faydalı modellər.** Faydalı modellərə dair **57** patent qeydiyyata alınıb. Onlardan **53-ü** milli, **4** ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur (2023-cü ildə 36 (30 milli, 6 xarici), 2024-cü ildə 43 (38 milli, 5 xarici).

Cədvəl və diaqramda 2025-ci ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentlər və onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə paylanması göstərilmişdir.

| Ölkələr | Ölkənin kodu | Faydalı modellərə dair patentlərin sayı |
|---|---|---|
| | | 2025 |
| **Azərbaycan Respublikası** | **AZ** | **53** |
| **Rusiya Federasiyası** | **RU** | **4** |
| Cəmi | | 57 |




| BPT | Faydalı modellərə dair patentlərin sayı | |
|---|---|---|
| | 2025 | |
| | milli | xarici |
| A | **3** | **-** |
| B | **5** | **1** |
| C | **4** | **-** |
| E | **16** | **2** |
| F | **15** | **1** |
| H | **7** | **-** |
| G | **3** | **-** |
| **Cəmi** | **53** | **4** |

**c) Sənaye nümunələri.** Sənaye nümunələrinə dair **20** patent qeydiyyata alınıb, onlardan **13-ü** milli, **7-i** isə xarici hüquqi şəxslərə məxsus olmuşdur (2023-cü ildə 12 (6 milli, 6 xarici), 2024-cü ildə 14 (10 milli, 4 xarici).

Cədvəllərdə və diaqramda 2025-ci ildə sənaye nümunəsinə dair qeydiyyatdan keçmiş patentlər və onların Sənaye nümunələrinin beynəlxalq təsnifatının sinifləri üzrə və sənaye nümunələrin sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir:




| Ölkələr | Olkənin kodu | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|---|
| | | 2025 |
| **Azərbaycan Respublikası** | **AZ** | **13** |
| **Türkiyə** | **TR** | **5** |
| **Rusiya Federasiyası** | **RU** | **1** |
| **Estoniya** | **EE** | **1** |
| Cəmi | | 20 |

| Sənaye Nümunələrinin Beynəlxalq Təsnifatı | | Sənaye nümunələrinə dair patentlərin sayı | |
|---|---|---|---|
| | | 2025 | |
| | | milli | xarici |
| 09 | Malların daşınması və ya saxlanması üçün istifadə olunan tara, qablaşdırma və qablar | 5 | - |
| 11 | Bəzək əşyaları | 3 | - |
| 12 | Nəqliyyat vasitələri və qaldırma qurğuları | - | 2 |
| 13 | Elektrik enerjisinin qəbulu, paylanması və çevrilməsi üçün avadanlıqlar | - | 2 |
| 14 | Məlumatların yazılması, telekommunikasiyası və ya emalı üçün avadanlıq | - | 1 |
| 21 | Oyunlar, oyuncaqlar, çadırlar, tentlər və idman malları | 4 | - |
| 25 | Tikinti blokları, tikinti konstruksiyaları və onların elementləri | 1 | - |
| 28 | Əczaçılıq və kosmetik məhsullar, tualet aksesuarları və cihazları | - | 1 |
| 32 | Qrafik simvollar və loqotiplər, dekorativ səthlər, ornamentlər, interyer və eksteryer kompozisiyaları | - | 1 |
| **Cəmi** | | **13** | **7** |

**ç) Əmtəə nişanları.** Hesabat ilində müvafiq Dövlət reyestrində **3100 əmtəə nişanı** qeydiyyata alınmışdır, onlardan **2291-i** milli, **809-u** isə xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdur (2023-cü ildə **3145** (2541 milli, 604 xarici), 2024-cü ildə **2844** (2096 milli, 748 xarici).

2025-ci ildə əmtəə nişanlara dair qeydiyyatdan keçmiş əmtəə nişanlarının sahiblərininn mənsub olduğu ölkələr üzrə məlumatlar cədvəl və diaqramda göstərilmişdir.







| Sıra №-si | Ölkələr | Ölkənin kodu | Qeydiyyata alınmış əmtəə nişanlarının sayı |
|---|---|---|---|
| | | | 2025 |
| 1. | Azərbaycan Respublikası | AZ | 2291 |
| 2. | Birləşmiş Ərəb Əmirlikləri | AE | 33 |
| 3. | Avstriya | AT | 2 |
| 4. | Argentina | AR | 2 |
| 5. | Baham adaları | BA | 1 |
| 6. | Belarus | BY | 1 |
| 7. | Braziliya | BR | 3 |
| 8. | Bolqarıstan | BG | 2 |
| 9. | İsveçrə Konfederasiyası | CH | 30 |
| 10. | Çin Xalq Respublikası | CN | 142 |
| 11. | Kipr | CY | 7 |
| 12. | Çexiya Respublikası | CZ | 4 |
| 13. | Almaniya Federativ Respublikası | DE | 23 |
| 14. | Danimarka Krallığı | DK | 1 |
| 15. | İspaniya | ES | 6 |

| | | | |
|---|---|---|---|
| 16. | Finlandiya | FI | 1 |
| 17. | Fransa | FR | 2 |
| 18. | Böyük Britaniya | GB | 13 |
| 19. | Gürcüstan | GE | 21 |
| 20. | Yunanıstan | GR | 4 |
| 21. | Honq-Konq | HK | 8 |
| 22. | Macarıstan | HU | 16 |
| 23. | İndoneziya | İD | 2 |
| 24. | İrlandiya | IE | 4 |
| 25. | Izrael | IL | 1 |
| 26. | Hindistan | IN | 20 |
| 27. | İran | IR | 4 |
| 28. | Islandiya | IS | 1 |
| 29. | İtaliya | IT | 5 |
| 30. | İordaniya | JO | 3 |
| 31. | Yaponiya | JP | 16 |
| 32. | Koreya Respublikası | KR | 18 |
| 33. | Küveyt | KW | 1 |
| 34. | Kayman Adaları | KY | 3 |
| 35. | Qazaxıstan | KZ | 18 |
| 36. | Qatar | QA | 5 |
| 37. | Qırğızıstan | KG | 1 |
| 38. | Şri-Lanka | LK | 2 |
| 39. | Livan | LB | 3 |
| 40. | Latviya | LT | 1 |
| 41. | Luxemburq | LU | 2 |
| 42. | Malayziya | MY | 2 |
| 43. | Meksika | MX | 2 |
| 44. | Niderland | NL | 5 |
| 45. | Pakistan | PK | 10 |
| 46. | Fillipin | PH | 1 |
| 47. | Polşa | PL | 1 |
| 48. | Portuqaliya | PT | 4 |
| 49. | Qatar | QA | 5 |
| 50. | Rusiya Federasiyası | RU | 84 |
| 51. | Səudiyyə Ərəbistanı | SA | 7 |
| 52. | İsveç | SE | 8 |
| 53. | Sinqapur | SG | 1 |
| 54. | Slovakiya | SK | 1 |
| 55. | Siriya Ərəb Respublikası | SY | 1 |
| 56. | Tajikistan | TJ | 1 |
| 57. | Tailand | TH | 1 |
| 58. | Türkiyə | TR | 71 |
| 59. | Tayvan | TW | 7 |
| 60. | Ukrayna | UA | 9 |
| 61. | ABŞ | US | 144 |
| 62. | Özbəkistan | UZ | 7 |
| 63. | Sent-Vinsent və Qrenadin Adaları | VC | 2 |

| | | | |
|---|---|---|---|
| 64. | Virgin Adaları | VG | 1 |
| 65. | Cənubi Afrika | ZA | 2 |
| | Cəmi | | 3100 |

**d) Çoğrafi göstəricilər.** 2025-ci il ərzində müvafiq Dövlət reyestrində **5** coğrafi göstərici qeydiyyata alınmışdır, onlardan **4** ədədi milli, **1** ədədi isə xarici hüquqi şəxsə məxsus olmuşdur (2023-cü ildə **2** (milli), 2024-cü ildə **1** (milli).

**13. Reyestrdə dəyişikliklər, verilmiş dublikatlar və çıxarışlar**. Hesabat dövründə patentlərin qüvvədə olma müddətinin uzadılması barədə 468 ədəd (2023-cü ildə **414,** 2024-cü ildə **355**), şəhadətnamələrin qüvvədə olma müddətinin uzadılması barədə 1376 ədəd (2023-cü ildə **769,** 2024-cü ildə **1224**), əmtəə nişanlarına dair - 579 ədəd (2023-cü ildə **1548,** 2024-cü ildə **693**) və patentlərə dair - 1 ədəd (2023-cü ildə **2,** 2024-cü ildə **2**) dəyişikliklər edilməsi haqqında bildiriş qeydiyyata alınmışdır, 44 ədəd (2023-cü ildə **34,** 2024-cü ildə **36**) dublikat, **155** ədəd (2023-cü ildə **84,** 2024-cü ildə **125**) əmtəə nişanına, 1 ədəd isə patentə çıxarış verilmişdir və 2096 ədəd (2023-cü ildə **138,** 2024-cü ildə **886**) sorğular göndərilmişdir.

**14. Müqavilələrin qeydiyyatı.** Sənaye mülkiyyəti obyektləri üzrə **176** (2023-cü ildə **128,** 2024-cü ildə **153**) müqavilə qeydiyyata alınmışdır. Onlardan:

- **142** (2023-cü ildə **105,** 2024-cü ildə **135**) müqavilə əmtəə nişanları üzrə hüquqların verilməsi (165 əmtəə nişanına (2023-cü ildə **413,** 2024-cü ildə **290**));
- **5** müqavilə ilə 5 ixtira patenti üzrə hüquqların verilməsi (2023-cü ildə 2 müqavilə ilə 2 sənaye nümunəsi, 2024-cü ildə 1 müqavilə ilə 1 faydalı model);
- **4** müqavilə ilə 5 əmtəə nişanı üzrə vərəsəlik hüquqlarının verilməsi (2023-cü ildə **3** müqavilə ilə 3 əmtəə nişanı, 2024-cü ildə **3** müqavilə ilə **4** əmtəə nişanı);
- **2** müqavilə ilə 2 əmtəə nişanı, **3** müqavilə ilə 6 ixtira iddia sənədi üzrə hüquqların verilməsi (2023-cü ildə **1** müqavilə ilə 1 əmtəə nişanı, 2024-cü ildə **1** müqavilə ilə 2 əmtəə nişanı, **1** müqavilə ilə 1 faydalı model);
- **19** müqavilə ilə 46 əmtəə nişanı və **1** müqavilə ilə 1 ixtira üzrə istifadə hüququna dair lisenziya verilməsi olmuşdur (2023-cü ildə **21** müqavilə üzrə 62 əmtəə nişanı və **2** müqavilə üzrə 2 ixtira, 2024-cü ildə **13** müqavilə üzrə 55 əmtəə nişanı və **1** müqavilə üzrə 1 ixtira).

**15. Müəlliflik hüququ və əlaqəli hüquqları sahəsində dövlət xidmətləri.** 2025-ci ildə **510** müəllif-hüquq sahibinə məxsus (2024-cü ildə - 346) **900** əsər və ifa (2024-cü ildə 660) – qeydiyyatdan keçirilmişdir. O cümlədən elektron qaydada **449** müəllif-hüquq sahibinin (2024-cü ildə -306) qeydiyyatdan keçirilmiş əsər və ifaların sayı **658** (2024-cü ildə - 543) olmuşdur.

Qeydiyyatdan keçirilmiş əsərlərin və ifaların təsnifatı aşağıdakı kimidir:

- ədəbi əsərlər - 371 (2024-cü illdə -197);
- elmi əsərlər - **122** (2024-cü ildə-75)
- mətnli və mətnsiz musiqi əsərləri -**209** (2024-cü ildə-138)
- əlaqəli hüquqların obyekti olan ifalar - **67** (2024-cü ildə olmamışdır)
- kompüter proqramı - **42** (2024-cü ildə isə **32**)
- **2** məlumat toplusu (xüsusi qorunma hüququ ilə qorunan məlumat toplusu - 1; müəlliflik hüququ ilə qorunan məluman toplusu -1).

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən indiyədək Agentlikdə **17 128** əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən **2783** əsər elektron qaydada qeydiyyatdan keçirilmişdir. **1996-2025-ci illərdə qeydiyyatdan keçirilmiş əsərlərin təsnifatı aşağıdakı kimidir:**




| | | |
|---|---|---|
| *Ədəbi əsərlər və kompüter proqramları* | 5059 | 29,66% |
| *Mətnli və mətnsiz musiqi və musiqili dram əsərləri* | 4585 | 26,60% |
| *Elmi əsərlər və dərs vəsaitləri* | 3214 | 18,41% |
| *əlaqəli hüquqların obyektləri, memarlıq, cöğrafiya, fotoqrafiya əsərləri və s.* | 1849 | 10,89% |
| *Dizayn və digər təsviri və dekorativ tətbiqi sənət əsərləri* | 1480 | 8,81% |
| *Törəmə əsərlər və toplular (tərtibat əsərləri)* | 941 | 5,63% |

**16. Nəzarət markalarının tətbiqi.** Müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılmaq üçün nəzarət markalarının tətbiqi sahəsində işlər davam etdirilmişdir. Hesabat ilində statistik məcmuələrin nüsxələrinə yapışdırılması üçün Dövlət Statistika Komitəsinin sifarişi ilə **4005** nəzarət markası çap edilərək təhvil verilib.

Nəzarət markasının tətbiqinə başlanıldığı 2016-cı ildən 2025-ci il dekabrın 30-u tarixinədək hüquq sahiblərinin sifarişləri əsasında Agentlik tərəfindən çap edilib təhvil verilmiş nəzarət markalarının ümumi sayı **571 787** olmuşdur.

**17. Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi.** 2025-ci ildə ISBN (International Standard Book Number - kitabın beynəlxalq standart eyniliyini müəyyən edən seriya nömrəsi) üzrə Beynəlxalq Agentliyin Azərbaycan Respublikası üzrə Milli Mərkəzi tərəfindən **612**, ISSN (International Standard Serial Number - Beynəlxalq standart seriya nömrəsi) Milli Mərkəzi tərəfindən **24** və "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar" İctimai Birliyi tərəfindən **22** seriya nömrəsi verilib.

**18. Kollektiv idarəetmə təşkilatlarına metodiki dəstəyin göstərilməsi.** Hesabat ilində müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən ictimai birliklərə metodiki dəstək və onların fəaliyyətinə müəllif-hüquq qanunvericiliyi baxımdan nəzarət davam etdirilmişdir.

"Azərbaycan Professional Kinorejissorlar Gildiyası" İctimai Birliyi tərəfindən **205516.00** manat qonorar yığılmış və müəlliflərə **106300.00** manat ödənilmiş, "Rəqəmli və Audiovizual Yayım Sənayesi" İctimai Birliyi tərəfindən **149771.72** manat qonorar yığılmış və müəlliflərə **15944.08** manat qonorar ödənilmiş, "Azərbaycan Müəllifləri" İctimai Birliyi tərəfindən **20000** manat qonorar yığılmış və müəlliflərə 13000 manat ödənilmiş, "Müəllif Hüquqları Uğrunda" İctimai Birliyi tərəfindən **47277.62** manat qonorar yığılmış və müəlliflərə **24963.08** manat qonorar ödənilmişdir.

**19. Əqli mülkiyyət hüquqlarının təminatı.** Hesabat ilində pozulmuş müəllif hüquqlarının bərpası ilə bağlı daxil olmuş **7** yazılı müraciət müsbət həll edilmişdir. Əmtəə nişanlarından qanunsuz istifadə ilə bağlı **100**-dək müraciət üzrə rəylər hazırlanaraq tədbir görülməsi üçün aidiyyəti dövlət orqanına göndərilmişdir**.** Agentliyin nümayəndələri əqli mülkiyyət məsələləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş **90**-dan çox iş üzrə **190**-dək məhkəmə iclasında iştirak etmişlər. Hər bir iş üzrə ekspert rəyi təqdim edilmişdir.

İxtira, faydalı model və əmtəə nişanlarına aid məsələlərə dair inzibati məhkəmələrdə cavabdeh qismində Agentliyə qarşı qaldırılmış **19 iddia tələbindən 18-i** rədd edilmişdir.

**Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyəti ilə bağlı cavabdeh qismində cəlb edildiyi və 2025-ci ildə yekun məhkəmə aktı qəbul edilmiş inzibati işlər üzrə statistik göstəricilər**




**20. Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına** hesabat ilində **335** müraciət (2024-cü ildə 269 müraciət) daxil olmuşdur. Apellyasiya Şurasında **294** işə (2024-cü ildə 271 iş) baxılmış, əmtəə nişanlarına dair **139** iş (2024-cü ildə 121 iş) üzrə etiraz ərizəsi təmin edilmiş, **48** iş (2024-cü ildə 43 iş) üzrə ərizə qismən təmin edilmişdir. **86** iş (2024-cü ildə 86 iş) üzrə ərizə rədd edilmiş, **25** ərizə (2024-cü ildə 17 ərizə) baxılmamış saxlanılmış və **5** ərizə (2024-cü ildə 4 ərizə) verilməmiş hesab edilmişdir.

**21. Əqli mülkiyyət sahəsində beynəlxalq əməkdaşlıq.** Hesabat ilində ÜƏMT, Avrasiya Patent Təşkilatı və ayrı-ayrı ölkələrin əqli mülkiyyət ofisləri ilə əlaqələr davam etdirilmiş, beynəlxalq müqavilə və sazişlərdən irəli gələn öhdəliklərin icrası istiqamətində tədbirlər həyata keçirilmişdir.

**7-11 aprel tarixlərində** Cenevrə şəhərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Müəlliflik hüququ və əlaqəli hüquqlar üzrə daimi komitəsinin 46-cı sessiyası çərçivəsində generativ süni intellekt mövzusunda müzakirələr aparılmışdır. Sessiya çərçivəsində **aprelin 10-da** "Müəllliflik hüququ və generativ süni intellekt" üzrə məlumat sessiyası təşkil olunmuşdur. ABŞ, Braziliya, Çin, Gürcüstan, Hindistan, Kamerun, Kanada, Kolumbiya, Koreya Respublikası, Macarıstan, Yaponiya, Avropa Komissiyası, "Google", "Shutterstock", "Pleias", "Deezer" şirkətlərinin nümayəndələrinin iştirak etdikləri tədbirdə fərqli yurisdiksiyalarda süni intellektin inkişafının təsiri, bu sahədə qanunvericilik təşəbbüsləri, süni intellekt tərəfindən və ya onun köməyi ilə yaradılan materiallara müəlliflik hüququ, həmin materiallara münasibətdə müəllif hüquqlarının pozulması və bununla bağlı məsuliyyət məsələləri ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri **Kamran İmanov** Sessiyaya onlayn rejimdə qatılaraq Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələri adından **"Süni intellekt və müəlliflik hüququ"** mövzusunda geniş məruzə ilə çıxış etmişdir. Məruzədə süni intellekt texnologiyalarının inkişafı fonunda meydana çıxan müasir hüquqi məsələlər, süni intellektin hüquq subyektliyi və onun tanınması problemləri, bu sahədə perspektivdə duran məsələlər ətraflı təhlil olunmuşdur. K.İmanov çıxışında ölkə Prezidenti tərəfindən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edildiyini bildirərək, bu sahədə normativ-hüququ bazanın təkmilləşdiriləcəyi, o cümlədən süni intellekt barədə qanunun qəbul ediləcəyi, və Süni İntellekt Akademiyasının yaradılacağı barədə məlumat vermişdir.

**2025-ci il 9 aprel tarixində** Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov ölkəmizdə səfərdə olan Moldovanın Əqli Mülkiyyət üzrə Dövlət Agentliyinin baş direktoru Eugeniu Rusu ilə görüşmüşdür. Görüşdə əqli mülkiyyət sahəsində ikitərəfli əməkdaşlığın perspektivləri, birgə tədbirlərin təşkili və digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

**14-16 aprel tarixlərində** İdarə Heyətinin üzvü **Sənan Tapdıqov** ÜƏMT-nin dəvəti ilə Cenevrədə keçirilən ÜƏMT İKT Liderliyi **Dialoq konfransında** iştirak və çıxış etmişdir. S.Tapdıqov əqli mülkiyyət sahəsində rəqəmsallaşma prossesinin sürətlə inkişaf etdiyini qeyd edərək Əqli Mülkiyyət Agentliyinin rəqəmsallaşma sahəsində əldə etdiyi təcrübə, iddiaçılar tərəfindən əqli mülkiyyət obyektlərinin patentləşdirilməsi və qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulunun "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi vasitəsilə həyata keçirildiy barədə danışmışdır. O, Agentlikdə həmçinin sənaye mülkiyyəti obyektləri barədə "Açıq reyestr"lərin yaradıldığını və ÜƏMT-nin IPAS sistemi ilə PƏNAH sistemi arasında inteqrasiya prosesinin uğurla davam etdirildiyini də bildirmişdir.

**21-22 aprel tarixlərində** Avrasiya Patent Təşkilatı (APT), Rusiya Federasiyası Əqi Mülkiyyət üzrə Federal Xidməti (ROSPATENT), Rusiya "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqat Universitetinin UNESCO-nun Müəlliflik hüququ, əlaqəli, mədəni və informasiya hüquqları üzrə kafedrası və Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının birgə təşkilatçılığı ilə Moskvada keçirilmiş "Əqli mülkiyyətin harmoniyası və ritmləri" mövzusunda "Автор/Author - 2025" V Beynəlxalq elmi-praktiki konfransda Agentliyin İdarə Heyətinin sədri "Əqli mülkiyyətin melodiya, harmoniya və ritmələrinin başında yaradıcılıq durur" adlı məruzə ilə çıxış edərək musiqi əsərinin hüquqi qorunmasının nəzəri aspektlərinin analizini vermiş və bu sahədə müxtəlif yanaşmaları təhlil etmişdir.

K.İmanov məruzəsində müəlliflik hüququ və patent hüququnda yaradıcılığın ümumi və fərqli tərəflərini izah etmiş, müasir dövrdə musiqi əsərində süni intellektin kifayət qədər nəzərə çarpdığını vurğulayaraq, süni intellektin inkişafı və onun yaratdığı müasir hüquqi məsələlər, süni intellektin hüquq subyektliyi və onun tanınmasının problemləri və bu sahədə qarşıda duran məsələlər barədə fikirlərini bölüşmüşdür.

Azərbaycan Respublikası Prezidentinin **2025-ci il 25 aprel tarixli** Sərəncamına əsasən, "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın Əsasnaməsi"nin 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə, Müstəqil Dövlətlər Birliyinin (MDB) Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şurasında Azərbaycan Respublikasını təmsil edən səlahiyyətli qurum kimi **Əqli Mülkiyyət Agentliyi** müəyyən edilmişdir.

**5-9 may tarixlərində** ÜƏMT-nin Əqli Mülkiyyət və İnkişaf Komitəsinin 34-cü iclasının sessiyasında (Cenevrə) Azərbaycan Əqli Mülkiyyət Agentliyinin nümayəndəsi iştirak etmişdir.

**14 may tarixində** Türk Dövlətləri Təşkilatının sənaye, elm, texnologiya və innovasiya nazirlərinin 1-ci iclasında qəbul edilmiş Fəaliyyət Planının icrası məsələlərinin müzakirəsi məqsədilə İşçi Qrupunun onlayn formatda iclası keçirilmişdir.

**15 may tarixində** Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Özbəkistan Respublikasının Ədliyyə Nazirliyinin 2024-2025-ci illər üçün birgə fəaliyyət planına uyğun olaraq vebinar keçirilmişdir.

**15 may tarixində** ÜƏMT-nin təşəbbüsü, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşkilatçılığı və **Əqli Mülkiyyət Agentliyinin dəstəyi ilə Qlobal İnnovasiya İndeksində (QİI) Azərbaycan üzrə göstəricilərin müzakirəsinə həsr olunmuş videokonfrans keçirilmişdir**. QİI-in yaradıcı komandası ilə müxtəlif formatlarda birbaşa təməsların qurulması, müzakirələrin aparılması təşəbbüsü hələ 2019-cu ildə ÜƏMT üzv dövlətlərinin Assambleyalarının 59-cu sessiyası çərçivəsində bu beynəlxalq qurumun İqtisadiyyat və statistika bölməsinin nümayəndəsi ilə keçirilən görüşdə Əqli Mülkiyyət Agentliyinin nümayəndələri tərəfindən irəli sürülmüşdür. Videokonfransda Əqli Mülkiyyət Agentliyinin Aparat rəhbəri Xudayət Həsənli çıxış etmişdir. O, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Azərbaycan Respublikası Komissiyasının nəzdində Agentliyin rəhbərliyi ilə "Əqli mülkiyyət məsələləri üzrə xüsusi işçi Qrupu"nun yaradıldığını bildirib. Qeyd edib ki, Xüsusi işçi qrupunun yaradılmasının məqsədi əqli mülkiyyətlə əlaqəli sahələr barədə məlumatlılığın artırılmasına dəstək göstərmək və bu sahədə Komissiyanın digər işçi qrupları arasında koordinasiyanı təşkil etməkdən ibarətdir.

**26 may tarixində** ÜƏMT-nin Akademiyası ilə əməkdaşlıq çərçivəsində onlayn seminar keçirilmişdir. Seminarda prioritet hədəf auditoriyalar üçün müəyyən edilmiş ehtiyaclara əsaslanaraq bacarıq yönümlü təlim kurslarının hazırlanıb keçirilməsi, institusional təlim, rəqəmsal marketinq strategiyası kimi məsələlər müzakirə olunmuşdur. ÜƏMT-nin dəstəyi ilə Agentlikdə Təlim Mərkəzinin yaradılması üçün məktubla ÜƏMT rəhbərliyinə müraciət olunmuşdur.

**29-30 may tarixlərində** Daşkənd şəhərində **"**Rəqəmsal Texnologiyalar Dövrü: Gələcəyə Hüquqi Baxış" mövzusunda keçirilmiş "Tashkent Law Spring IV" Beynəlxalq Hüquq Forumunda Agentliyinİdarə heyətinin sədrinin köməkçisi **Əkbər Əliyev** və Beynəlxalaq əlaqələr şöbəsinin məsləhətçisi **Günel İsgəndərli** iştirak etmişlər. Forumda rəqəmsal dövrdə tənzimləyici siyasət, yeni texnologiyaların hüquqi tənzimləmədə tətbiqi, beynəlxalq hüquqi əməkdaşlıq, elektron hökumət və ictimai xidmətlərin rəqəmsallaşdırılması, hüquq və texnologiyanın qarşılıqlı təsiri kimi məsələlər müzakirə olunmuşdur.

**29-30 may tarixlərində** İdarə Heyətinin üzvü **Sənan Tapdıqov** Astana şəhərində keçirilən Beynəlxalq Astana Forumu çərçivəsində "İntellektual mülkiyyət Aİ və kreativ sənayelər dövründə: çağırışlar və imkanlar" adlı panel sessiyasında iştirak etmişdir. Panel sessiyasında texnoloji tərəqqi dövründə əqli mülkiyyət hüquqlarının səmərəli idarə olunması və qorunması strategiyalarını müzakirə edilmişdir. Sessiya çərçivəsində ölkəmizin sahəvi əməkdaşlıq məsələlərinin müzakirəsi və inkişafı məqsədilə bir sıra görüşlər keçirilmişdir.

**11 iyun tarixində** Əqli Mülkiyyət Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və ÜƏMT-nin birgə təşkilatçılığı ilə "İqtisadi artım və rəqabət qabiliyyətliliyi üçün əqli mülkiyyət aktivlərindən istifadə etmək məqsədilə Azərbaycanın aqrar-ərzaq sektorunda mikro və kiçik biznesin dəstəklənməsi üzrə ÜƏMT Layihəsinin Benefisiarları üçün təlim" layihəsinin icrasının başa çatması ilə bağlı tədbir keçirilmişdir. Tədbirdə Agentliyin İdarə Heyətinin üzvü Sənan Tapdıqov ölkəmizdə sahibkarlıq subyektlərinin əqli mülkiyyət hüquqlarının qorunması sasində görülən işlər barədə məlumat vermişdir.

Bağlanış sessiyasında çıxış edən ÜƏMT-nin Mərkəzi Avropa və Baltikyanı ölkələr və Aralıq dənizi ölkələri üzrə bölməsinin əməkdaşı xanım Mihaela Cerbari Simmons və türkiyəli beynəlxalq ekspert xanım Arife Yılmaz Topal həyata keçirilən layihənin məqsədi, əqli mülkiyyətin aqro-ərzaq biznesində aktuallığı, aqro-ərzaq sənayesi üçün coğrafi göstəricilər və onların əhəmiyyəti, aqro-ərzaq sahəsində əqli mülkiyyətin kommersiyalaşdırılması strategiyalarından danışmışlar.

**8 iyul tarixində** Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri **Kamran İmanov** ÜƏMT Assambleyanın iclasına onlayn rejimdə qatılaraq çıxış etmişdir. Agentliyin rəhbəri Azərbaycanda həyata keçirilən islahatlar "Azərbaycan 2030" və "2022–2026-cı illərdə Sosial-İqtisadi İnkişaf Strategiyası"na uyğun olaraq, yaradıcı sahibkar və rəqabətqabiliyyətli bazarlarla yanaşı, innovasiyaları dəstəkləyən əqli mülkiyyət (ƏM) prioritet sahə kimi müəyyən edilməsi, inzibati prosedurların rəqəmsal əsasda transformasiyasının nəticəsi olaraq yaranan və ÜƏMT-nin IPAS (Industrial Property Administration System) sistemi ilə inteqrasiya olunmuş milli PƏNAH (Patent və Əmtəə Nişanlarına Açıq Hədəf) platformasının "bir pəncərə" prinsipi üzrə iddiaçılarla təmassız əlaqəni, 24/7 rejimində istənilən məkandan onlayn müraciət və ofislə rəqəmsal məkanda qarşılıqlı fəaliyyəti təmin etməsi barədə məlumat vermişdir. Qeyd etmişdir ki, reyestrlərin açıq olması, 3D formatın tətbiqi, patent analitikası, iddia sənədlərinin baxılma müddətinin azaldılması, süni intellektin tətbiqi ilə iddia sənədlərinin verilməsi imkanları və ixtiraçılıq, patent aktivliyinin artması işğaldan azad olunmuş ərazilərdə yaradılan "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları ilə bağlı xüsusi əhəmiyyət daşıyır. K. İmanov bildirib ki, biz cənab Tanqın ƏM-in təcrid olunmuş hüquqi sahə kimi deyil, əksinə, qeyri-maddi aktivlər portfeli kimi qəbul etmək lazım olduğu fikrini dəstəkləyirik. Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri K. İmanovun fikrinə əsasən, əqli mülkiyyətin yenidən dərk edilməsi zamanı ƏM yalnız müstəsna hüquqlar kimi deyil, ilk növbədə hüquqi mühafizə ilə təmin olunmuş əqli fəaliyyət nəticələri kimi başa düşülür. Bu da ƏM institutunun hüquqi çərçivə ilə yanaşı, iqtisadi əhəmiyyət və sosial-

mədəni təsir baxımından da kompleks şəkildə dəyərləndirilməsini tələb edir. K.İmanov sonda patent və müəllif hüququ sahələrinin qarşılıqlı inteqrasiyasının vacib olduğunu vurğulayıb.

Assambleya çərçivəsində Agentliyin nümayəndə heyəti ölkəmizin sahəvi əməkdaşlıq məsələlərinin müzakirəsi və inkişafı məqsədilə bir sıra görüşlər keçirmişdir. Agentliyin İdarə Heyətinin üzvü S. Tapdıqovın rəhbərliyi ilə nümayəndə heyəti ÜƏMT-nin Keçid və İnkişaf Etmiş Dövlətlər bölməsinin direktoru Habip Asan, ÜƏMT-nin Hakimlər İnstitutunun direktoru xanım Eun-Joo Min, digər ÜƏMT rəsmiləri, həmçinin üzv dövlətlərin (Türkiyə, Qazaxıstan, Macarıstan, Belarus) nümayəndələri ilə ikitərəfli görüşlər davam etdirilmişdir.

**8-17 iyul tarixlərində** Cenevrə şəhərində ÜƏMT üzv dövlətləri Assambleyalarının 66-cı iclası keçirilmişdir.

Assambleyaların iyulun 17-də keçirilən iclaslarında bir sıra təşkilati məsələlərə baxılmışdır. Koordinasiya Komitəsi və Paris və Bern İttifaqının İcraiyyə Komitəsində qeyri-rəsmi məsləhətləşmələrdən sonra 40 dövlət Bern İttifaqı İcraiyyə Komitəsinin daimi üzvü seçilmişdir. Daimi üzv seçilən dövlətlər sırasında Azərbaycan da yer almışdır. Qeyd edək ki, Azərbaycan 1995-ci ildə ÜƏMT-nin əqli mülkiyyətin qorunması sahəsində ən böyük beynəlxalq müqaviləsi olan Paris konvensiyasına və 1998-ci ildə Bern konvensiyasına qoşulmuşdur. Ölkəmiz həmçinin 2027-ci ildə keçiriləcək Baş Assambleyanın növbəti sessiyasının bağlanışına qədərki dövr üçün ÜƏMT-nin ən vacib rəhbər orqanlarından olan Koordinasiya Komitəsinə 194 ölkə arasından daimi üzv seçilmiş 83 dövlətdən biridir. Azərbaycan Proqram və Büdcə Komitəsinin də üzvü seçilib. Komitədə həmin vaxtadək təmsil olunacaq dövlətlərin sayı 53-dür. Komitə Birləşmiş Millətlər Təşkilatının (BMT) maliyyə nəzarəti üçün vacib rol oynayır.

ÜƏMT-nin Assambleyalarının vəzifəli şəxslərinin İyulun 17-də keçirilən seçkilərində isə Azərbaycan Əqli Mülkiyyət Agentliyinin rəhbəri Kamran İmanov 118 üzv dövlətin təmsil olunduğu ÜƏMT-nin Müəllif hüquqları Müqaviləsi Assambleyasının sədri seçilib. Azərbaycan 2005-cı ildən ÜƏMT-nin Müəlliflik hüququna dair Müqaviləsinin üzvüdür.

Beləliklə, Azərbaycan BMT-nin ən böyük qurumlarından biri olan ÜƏMT-nin **3** böyük komitəsində təmsil olunur və onun ən vacib assambleyasından birinə rəhbərlik edir.

Xatırladaq ki, Azərbaycan nümayəndəsi 2018-ci ildə ÜƏMT-nin Müəllif hüquqları Müqaviləsi Assambleyası sədrinin müavini seçilmiş, 2019-2020-ci və 2023-cü illərdə Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası Assambleyasına, 2021-2022-ci illərdə isə Müəllif hüquqları Müqaviləsi Assambleyasına sədrlik etmişdir.

**19-21 avqust tarixlərində** Qırğızıstan Respublikasının Bişkek şəhərində Türk Dövlətləri Təşkilatı (TDT) üzv dövlətlərinin Əqli Mülkiyyət Qurumlarının Rəhbərlərinin birinci görüşü keçirilmişdir. Tədbirdə Əqli Mülkiyyət Agentliyinin nümayəndələri və Azərbaycan Respublikasının Qırğızıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri iştirak etmiş, fikir mübadiləsi çərçivəsində Birgə Bəyannamənin layihəsinə dair Əqli Mülkiyyət Agentliyinin mövqeyini və təkliflərini bir daha Türk Dövlətləri Təşkilatının (TDT) üzv dövlətlərinin nümayəndə heyətinin diqqətinə çatdırmış, görüşün tarixi əhəmiyyəti, türk dünyasında əqli mülkiyyətin innovasiya, elm, texnologiya və sənayenin inkişafının təməlində durduğu vurğulanmışdır. Tədbir çərçivəsində Əqli Mülkiyyət Qurumlarının Rəhbərlərinin Birinci Görüşünün Birgə Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə tərəflər əqli mülkiyyətin qorunması və təminatı sahəsində faydalı və uzun müddətli qarşılıqlı əməkdaşlığın gücləndirilməsi əzmini bir daha təsdiq etdilər. Həmçinin ikinci görüşün Azərbaycan Respublikasında keçiriləcəyi barədə qərar qəbul olunmuş və bu Birgə Bəyannamədə öz əksini tapmışdır.

**2 sentyabr tarixində** Agentlikdə ABŞ Ticarət Nazirliyinin Ticarət Hüququnun İnkişafı Proqramının (CLDP) nümayəndələri ilə əqli mülkiyyət sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır. Əqli Mülkiyyət Agentliyinin Aparat rəhbəri Xudayət Həsənli ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar çərçivəsində əqli mülkiyyət sahəsində aparılan institusional islahatlar barədə qonaqlara ətraflı məlumat vermişdir. Əqli mülkiyyət üzrə beynəlxalq ekspert və sahə üzrə tanınmış mütəxəssis olan Kamran İmanovun rəhbərlik etdiyi Agentlik ÜƏMT tərəfindən müasir çağırışlara cavab verən milli əqli mülkiyyət ofislərindən biri

hesab olunur. CLDP nümayəndələrinə bildirilib ki, əqli mülkiyyətin idarəçiliyi sahəsində Azərbaycanın müsbət təcrübəsinin Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında fəaliyyət göstərən digər milli patent ofisləri tərəfindən də tətbiq olunması barədə Avrasiya Patent Təşkilatı tərəfindən təşəbbüs qaldırılmışdır.

**12 sentyabr tarixində Avrasiya Patent Təşkilatının (APT) İnzibati Şurasının** Büdcə üzrə işçi qrupunun **onlayn formatda 33-cü iclası keçirilmişdir.** İclas zamanı APT-nin maliyyə-təsərrüfat fəaliyyəti, gələcək büdcə planlaması və digər müvafiq maliyyə məsələləri müzakirə olunmuşdur. Tədbirdə üzv dövlətlərin nümayəndələri iştirak etmiş, təşkilatın büdcə siyasətinin təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır.

**17-21 sentyabr tarixlərində** Türkiyə Respublikasının İstanbul şəhərində **10-cu İstanbul Beynəlxalq İxtira Sərgisində (ISIF'25) Agentliyin nümayəndələri iştirak ediblər.** ISIF’25 çərçivəsində ixtiraçılar, əqli mülkiyyət qurumlarının nümayəndələri və beynəlxalq təşkilatların rəhbərlərinin iştirakı ilə müxtəlif sessiyalar, təqdimatlar və görüşlər təşkil olunmuşdur. 2025-ci il 17 sentyabr tarixində sərgi məkanında Türkpatentin rəhbərliyinin təşkilatçılığı ilə beynəlxalq tərəfdaşlar olan **TÜRKPATENT-in rəhbəri M. Zeki Durak,** Macarıstan Əqli Mülkiyyət İdarəsinin (HIPO) Sənaye Mülkiyyətinin İdarəedilməsi üzrə vitse-prezidenti **Dóra Gyetvai Virág, ÜƏMT** Texnologiya və Rəqəmsallaşma Mərkəzinin direktoru **Habip Asan** ilə ikitərəfli və çoxtərəfli görüşlər keçirilmişdir. Sərgidə 20 ölkədən 371 ixtiraçı iştirak etmiş, innovativ ideyalar və texnoloji həllər təqdim olunmuşdur. Həmçinin, TÜRKPATENT tərəfindən hər il ənənəvi olaraq ISIF çərçivəsində keçirilən **“Uluslararası Buluş Yarışması”** 2025-ci ildə də reallaşdırılmış, burada yenilikçi ideyalar və texnoloji həllər rəqabət mühitində qiymətləndirilmişdir. Azərbaycanı təmsilçiləri **“Yeni nəsil onurğa korseti” adlı ixtiraları ilə qızıl medala layiq görülmüşlər.**

**14-15 oktyabr tarixlərində** ÜƏMT Hakimlər Forumunda Agentliyin Hüquq, apellyasiya və sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı şöbəsinin müdir müavini-sektor müdiri **Nailə Nəsibova** iştirak etmişdir. Agentliyin nümayəndəsi bu sahədə son məhkəmə qərarlarını təhlil edərək, fərqli yurisdiksiyalarda formalaşmış təcrübələri paylaşmış və hüquq sahəsinin gələcək inkişaf perspektivlərinin müzakirələrində iştirak etmişdir.

**14-15 oktyabr tarixlərində** Aşqabad şəhərində Agentliyin sədrliyi ilə Avrasiya Patent Təşkilatının (APT) İnzibati Şurasının hibrid formatda 47-ci (növbəti 32-ci) iclası keçirilmişdir (**2027-ci**ilədək APT-nin İnzibati Şurasına Agentliyin İdarə Heyətinin rəhbəri **Kamran İmanov** sədrlik edəcək).

İdarə Heyətinin sədri **K.İmanov** iclası açaraq giriş nitqi söyləmişdir. K.İmanov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Davos İqtisadi Forumundakı çıxışına istinad edərək Azərbaycan Respublikası Prezidentinin bu fikirlərini sitat gətirib: "Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir.” Agentliyin rəhbəri çıxışında əqli mülkiyyət sahəsinin inkişafının əsas problemləri, APT çərçivəsində əməkdaşlığın inkişafı ilə bağlı məsələlər və vəzifələr barədə danışıb. K.İmanov hər bir ölkənin özünəməxsus kimliyinə görə öz xalqına, onun ən böyük sərvəti olan intellektə borclu olduğunu vurğulayaraq “əqli mülkiyyət” anlayışının da onu yaradanlara – müəlliflərə, ixtiraçılara və sahibkarlara borclu olduğunu bildirib. Çıxışda yenilənmiş əqli mülkiyyət anlayışı, müəlliflik hüququ və patent hüququ arasında qarşılıqlı əlaqə, xüsusilə də sənaye nümunələrinin qorunması üzrə müasir tendensiyalara toxunulub. Sonra K.İmanov gündəlikdə duran məsələlər barədə məlumat verib. O, iclasın işinə uğurlar arzulayıb və sözü İnzibati Şuranın sədrinin müavini, Türkmənistanın Maliyyə və İqtisadiyyat Nazirliyinin Əqli Mülkiyyət Dövlət Xidmətinin rəhbəri Ata Annaniyazova verərək tədbirin aparılmasını ona həvalə edib. APT-nın icraçı orqanı olan Avrasiya Patent İdarəsinin prezidenti Qriqoriy İvliyev APT-nin 2024-cü il üçün hesabatını diqqətə çatdırıb. Hesabatda təşkilatın beynəlxalq əlaqələri, Çin, Rusiya, OAPI ilə artan əməkdaşlıq barədə məlumat verilib, APT-nın 2024-cü il üzrə maiyyə vəziyyəti, ixtira və sənaye nümunələri üzrə iddia sənədləri dinamikası diqqətə çatdırılıb. Hesabat yekdilliklə qəbul olunub. Daha sonra APT-nın 2026-cı il üçün büdcə layihəsi müzakirə olunub və qəbul edilmişdir.

**21 oktyabr tarixində Əqli Mülkiyyət Agentliyi və Türkiyə Patent ve Əmtəə Nişanları Qurumu** coğrafi göstəricilər barədə **birgə onlayn seminar keçirilib.** Seminarda Türkpatentin ekspertləri "Coğrafi göstəricilərin qeydiyyatı üçün müraciətin hazırlanması və ekspertizanın mərhələləri", "Qeydiyyatdan sonra nəzarət mərhələləri", "Digər qurumlar ilə əməkdaşlıq və marketinq fəaliyyəti" mövzularında təqdimatlar ediblər.

**23 oktyabr tarixində** Bakıda İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) Sənaye, Elm, Texnologiya və İnnovasiya Nazirlərinin 2-ci Toplantısı çərçivəsində işçi qrupun iclasında Əqli Mülkiyyət Agentliyinin nümayəndə iştirak etmişdir. TDT Baş katibinin müavini Merey Mukazhan təşkilata üzv dövlətlər arasında ortaq tarixi və mədəni dəyərlərin tərəfdaşlıq üçün möhkəm zəmin yaratdığını vurğulayaraq yaşıl texnologiyaların inkişafının və bu sahədə transformasiyanın sürətləndirilməsinin regionun davamlı inkişafında mühüm rol oynadığnı nəzərə çatdırıb, qarşılıqlı fəaliyyətin gücləndirilməsində İşçi qrupun iclasının mühüm rol oynayacağına əminliyini ifadə etmişdir. İclasda elmi tədqiqat və təqaüd proqramlarının təşkili, elmi-texnoloji əməkdaşlığı təşviq edən institusional dəstək mexanizmləri, həmçinin metrologiya, qida təhlükəsizliyi üzrə infrastrukturun inkişafı, standartlaşdırma, əqli mülkiyyət sahəsində əməkdaşlıq, kosmik texnologiyaların istehsalı və inkişafı sahəsində birgə təşəbbüslər ətrafında fikir mübadiləsi aparılmış, işçi qrupun gələcək fəaliyyətinə dair atılacaq addımlar müzakirə edilmişdir.

ÜƏMT-nin 2025-ci ildə dərc olunmuş **"Əqli mülkiyyətin istiqamətverici rolu haqqında hesabat"**ı dövlət qurumları, akademik dairələr, biznes sektoru və beynəlxalq təşkilatları təmsil edən 45-dən çox beynəlxalq ekspertlə aparılmış müsahibələrə əsaslanaraq hazırlanmışdır. ÜƏMT-nin Baş direktoru Daren Tang yazdığı ön sözdə hesabatın hazırlanmasına dəstək verən tanınmış şəxslər sırasında Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun da adını qeyd etmişdir. Hesabatın **"Hüquqi amillər"** bölməsində əqli mülkiyyət üzrə beynəlxalq ekspert **K.İmanovun** texnologiya və hüquq münasibətlərinin qarşılıqlı təsirinə dair *"Texnologiya və əqli mülkiyyət hüququ daim bir-birini stimullaşdırır, onlar zamanla bir-birinin istiqamətini və inkişafını qarşılıqlı şəkildə formalaşdırır"* fikri də yer almışdır. K. İmanovun sitatı ÜƏMT-nin Hesabatında hüquqi çərçivələrin gələcək nəsil texnologiyalara uyğunlaşdırılmasının vacibliyini göstərən əsas tezislərdən biri kimi təqdim olunub. ÜƏMT-nin qeyd edilən hesabatında Cənubi Qafqaz regionundan yalnız Azərbaycan nümayəndəsi təmsil olunmuşdur.

**1 noyabr tarixində** Agentliyin İdarə Heyətinin üzvü "Konstitusiya və Suverenlik İli" çərçivəsində Almaniyanın Köln şəhərində "Azərbaycan və Avropa arasında süni intellekt və enerji mübadiləsinin perspektivləri" mövzusunda Avropada Yaşayan Azərbaycanlı Mühəndislərin II Forumunda iştirak və məruzə ilə çıxış etmişdir.

Forum iştirakçılarına komitənin layihələri, xüsusilə ixtisaslaşmış forumların məqsəd və əhəmiyyəti barədə geniş videomaterial nümayiş olunub. Forumda süni intellektin müxtəlif sahələrdə tətbiqi, süni intellekt vasitəsi ilə insan duyğularını oxumaq, insanabənzər robot texnikasında etik innovasiya, Azərbaycandan Avropaya baxış və bir sıra digər istiqamətlər üzrə təqdimatlar olub. Avropanın bir sıra tanınmış azərbaycanlı mühəndisləri, alim və mütəxəssislər çıxış edərək mühəndislik sahəsində beynəlxalq əməkdaşlığın, innovativ təşəbbüslərin və elmi-texnoloji mübadilənin əhəmiyyətindən danışıb, şəxsi təcrübələrini bölüşüb, forumun diasporun elmi və intellektual potensialının inkişafına mühüm töhfə verəcəyini bildiriblər.

**3-7 noyabr tarixlərində** Cenevrə şəhərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Patent Hüququ üzrə Daimi Komitənin 37-ci sessiyasında Agentliyin nümayəndəsi, idarə heyətinin sədrinin köməkçisi (hüquq məsələləri üzrə) iştirak etmişdir.

**5 dekabr tarixində** Astana şəhərində keçirilən **"**IP Eurasia – IP Kazakhstan" adlı beynəlxalq konfransda Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktoru **Anar Hüseynov** iştirak etmişdir. Konfransda əczaçılıq və tibb sənayesində innovativ potensialın inkişafına və süni intellektin Avrasiyada əqli mülkiyyətə təsiri məsələləri müzakirə olunmuşdur.

**9–10 dekabr tarixlərində** Bakı şəhərində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən "Əqli mülkiyyət və süni intellekt" mövzusunda Beynəlxalq konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə açan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri **Kamran İmanov** qeyd etmişdir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" iqtisadiyyat, dövlət idarəçiliyi, təhsil, infrastruktur və s. sahələri əhatə edir. Strategiyada normativ-hüquqi bazanın təkmilləşdirilməsini, data etikası, məsuliyyət məsələlərini özündə cəmləşdirən "Süni intellekt haqqında" Qanunun qəbul edilməsi, Süni İntellekt Akademiyasının yaradılması barədə tapşırıqlar nəzərdə tutulur və təbii olaraq əqli mülkiyyət sahəsində qanunlarda da müvafiq dəyişikliklərin aparılmasını gündəmə gətirir.

K.İmanov hazırda süni intellektin sadəcə bir vasitə deyil, bir alət deyil, iqtisadiyyata, mədəniyyətə və idarəetməyə inteqrasiya olunmuş bir infrastruktur olduğunu bildirərək dünyada süni intellektin əhəmiyyətinə toxunub. Vurğulayıb ki, süni intellekt rəqəmsal suverenliyin əsas hərəkətverici qüvvələrindən biridir. Gələcəyin prinsipi insan və süni intellektin birgə fəaliyyət göstərməsinə əsaslanır. Süni intellekt həm də yeni kommunikasiya və media formalarının yaranması deməkdir ki, generativ süni intellekt jurnalistikanı dəyişdirir, yeni məzmun formatlarını fmüəyyən edir və s. Nəhayət, süni intellekt həm də sosial inklüzivlikdir, insanları avtomatik tərcümə, nitq və üztanıma, həmçinin köməkçi texnologiyalara geniş çıxışla təmin edir, məhdud imkanlı, əlilliyi olan insanlara assistiv imkanlar yaradır. Sonra K.İmanov konfrans iştirakçılarını patent qorunması sahəsində dünya və Azərbaycan üzrə bəzi statistik məlumatlarla tanış edib. Qeyd edilib ki, 2024-cü ildə dünyada patent qeydiyyatı üçün müraciətlərin sayı 2023-cü il ilə müqayisədə 4,9% artıb (3,7 mln.), o cümlədən informasiya texnologiyaları sahəsində 13,2% artım, sənaye nümunələri üzrə 2,2% (1,6 mln) artım, əmtəəə nişanları üzrə azalma posesi stabilləşib. Azərbaycanda isə hesabat ilində 2024-cü il ilə müqayisədə 42% artım müşahidə olunur.

"Qlobal İnnovasiya İndeksi-2025" hesabatı üzrə patent sistemi Azərbaycanın güclü tərəfləri kimi göstərilib (53-57-ci yerlər), faydalı modellər üzrə isə ölkəmiz 38-ci yerdədir. Agentliyin rəhbəri xüsusilə vurğulayıb ki, bütün bu artımlar cənab Prezident İlham Əliyevin innovasiya tipli institusional dəyişiklərinin bəhrəsidir və Agentlikdə fəaliyyət göstərən Patent və Əmtəə Nişanlarına Açıq Hədəf (PƏNAH) sistemi, Açıq Reyestr, Çağrı mərkəzi və potensial ixtiraçılar ilə çoxlu görüşlərimizin nəticələridir. Bu, həm də Bakı Dövlət Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universitetində əqli mülkiyyət kafedralarının Agentlikdə filiallarının fəaliyyəti nəticəsində əqli mülkiyyət mədəniyyətinin formalaşdırmasına, məlumatlılığın artırılmasına və tədrisin səviyyəsinin yüksəldilməsinin göstəricisidir.

Konfransın açılışında çıxış edən ÜƏMT-nin Əqli mülkiyyət və qabaqcıl texnologiyalar departamentinin direktoru xanım Ulrike Till Azərbaycanda süni intellekt ekosisteminin hədəf deyil, artıq reallıq olduğunu bildirərək, süni intellektin Azərbaycanda gündəlik fəaliyyətə daxil olduğunu diqqətə çatdırıb. Avrasiya Patent İdarəsinin prezidenti Qriqoriy İvliyev Azərbaycan ilə əqli mülkiyyət sahəsində bir çox layihələrin reallaşdırdığını qeyd edib və Əqli Mülkiyyət Agentliyinin fəaliyyətini yüksək qiymətləndirib.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Həsən Həsənli, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, mədəniyyət nazirinin müavini Murad Hüseynov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini Ceyhun Salmanov, İqtisadiyyat Nazirliyinin Rəqəmsal idarəetmə şöbəsinin müdiri Anar Nərimanov və başqaları konfransın əhəmiyyətini söyləyiblər.

Qeyd edək ki, beynəlxalq konfransda 20 nəfərdən çox xarici qonaqlar, o cümlədən Yaponiya Patent İdarəsi, Fransa Patent və Əmtəə Nişanı İdarəsi, Koreya Respublikasının Əqli Mülkiyyət Nazirliyinin nümayəndələri, həmçinin ölkəmizin dövlət orqanlarının (qurumlarının) və qeyri-hökumət təşkilatlarının, ali təhsil müəssisələrinin nümayəndələri və digər maraqlı şəxslər iştirak ediblər.

Beynəlxalq konfransda Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri cənab Kamran İmanov “Süni intellektin əqli mülkiyyətdə istifadəsi: riyazi köklərdən praktiki və fəlsəfi-hüquqi aspektlərədək” mövzusunda geniş məruzə ilə çıxış edib. Məruzədə əqli mülkiyyət perspektivindən bilik dövriyyəsi, biliyin "xammal" və əqli fəaliyyətin məhsulu kimi çıxış etməsi, əqli fəaliyyət nəticəsi anlayışının məzmunu və əhatə dairəsi, əqli fəaliyyət nəticəsinin fəlsəfə, hüquq və sosial-iqtisadi perspektivlərdə müqayisəsi məsələlərinə toxunulub. "Bilik" və "informasıya"nın qarşılıqlı təsiri və fərqləri, informasiyanın subyektivləşdirilməsi və biliyin obyektivləşdirilməsi, bu anlayışlarının korrelyasiyası və onların fərqi və qarşılıqlı geridönüşü, informasiya vasitəsilə bilik dövriyyəsi nəzəri cəhətdən analiz edilib.

İki gün davam edən beynəlxalq tədbirdə həmçinin xarici ekspertlərin “Ümumi baxış: süni intellekt və əqli mülkiyyət siyasəti”, “Süni intellekt ilə əlaqəli ixtiraların patentləşdirilməsi (Süni intellekt vasitəsilə və süni intellekt tərəfindən yaradılan əqli mülkiyyət obyektləri predmetləri)”, “Patent sistemində süni intellektin alət kimi tətbiqi: ekspertiza və idarəetmə proseslərində süni intellektdən istifadə”, “Süni intellekt üzrə əqli mülkiyyət siyasəti: patent müəllifliyi (ixtiraçılığı) və hüquq sahibliyi məsələləri” mövzularında məruzələri dinlənilmiş, “Süni intellekt və əqli mülkiyyət obyektləri” mövzusunda açıq müzakirələr aparılıb.

**22. Əqli mülkiyyətə dair nəşrlər.** 2025-ci ildə Agentlik tərəfindən K.İmanovun müəllifliyi ilə Azərbaycan, ingilis və rus dillərində 10 kitab və broşur nəşr olunaraq ixtiraçılar, patent sahibləri, müəlliflər, hüquqşünaslar, tədqiqaçılar, tələbələr və əqli mülkiyyətlə maraqlanan digər şəxslər arasında pulsuz paylanılmışdır.

Nəşrlər aşağıdakılardır:

“Əqli mülkiyyətin melodiya, harmoniya və ritmlərinin başında yaradıcılıq durur;

“Творчество рождает мелодию, гармонию и ритмы интеллектуальной собственности”;

“Использование искусственного интеллекта в интеллектуальной собственности: от математических истоков к практическим и философско-правовым аспектам”;

“Use of Artificial Intelligence in Intellectual Property: From Mathematical Origins to Practical and Philosophical-Legal Aspects”;

“Yaradıcılığı həyat tərzimizə çevirək”;

“Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan əraziləri haqqında etno-coğrafi hay-erməni hiylə və fitnələri”;

“Древние тексты и классические источники разоблачают армянские фальсификации и измышления или этно-географические армяно-хайские инсинуации и провокации в отношении территорий Азербайджана”;

“Ancient texts and classical sources expose Armenian falsifications and fabrications, or ethno-geographical anti-Armenian tricks and intrigues about Azerbaijani territories”;

“Erməni saxtakarlıqları və mənimsəmələrinin antologiyası”;

“Kommersiya potensiallı patentlər və onların tətbiq imkanları”.

**23. Erməni saxtakarlıqlarının və erməni plagiatçılığının ifşası.** Erməni saxtakarlıqlarının ifşasına dair Agentlik tərəfindən 2016-cı ildən başlayaraq **“Don bəzəyər də, ifşa edər də”** seriyasından kitab və broşurların nəşri davam etdirilmiş və hər il ənənəvi konfranslar keçirilmişdir.

**23 Aprel - “Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü”** münasibətilə ölkəmizdə hər il erməni saxtakarlıqlarının ifşasına həsr olunan və 2016-cı ildən başlayaraq **“Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir...”** devizi altında silsilə mövzular üzrə keçirilir. Hesabat ilində Agentliyin və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilmiş konfrans həmin silsilədən “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan əraziləri haqqında etno-coğrafi hay-erməni hiylə və fitnələri” mövzusuna həsr olunmuşdur. Konfransda Agentliyin İdarə Heyətinin sədri eyniadlı geniş məruzə etmiş və ekspertlərin çıxışları dinlənilmişdir.

Konfrans çərçəvəsində **"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Qərbi Azərbaycan İcması arasında Anlaşma Memorandumu"** imzalanmışdır.

Azərbaycana məxsus folklor nümunələrinin, musiqilərin ermənilər tərəfindən mənisənilməsi hallarına qarşı mübarizə hesabat ilində də ardıcıl olaraq davam etdirilmişdir. Agentlik tərəfindən görülən tədbirlər nəticəsində xalq artisti Elmira Rəhimovanın ifa etdiyi **"İntizar"** mahnısı (musiqisi bəstəkar Nüşabə Muradovaya və sözləri şair Südabə Şəfaya məxsusdur) erməni musiqi nümunəsi kimi Artash Asatryanın ifasında "Ter Hisus Ari" adı altinda Youtube platformasında yerləşdirilərək, erməni ifaçı özünü söz və musiqi müəllifi kimi təqdim etmişdi.

Xalq artisti Brilliant Dadaşovanın ifa etdiyi musiqisi bəstəkar Gülər Həsənovaya və sözləri şair Baba Vəziroğluna məxsus olan "Yeni il mahnısı" digər erməni müğənnisi Tiqran Asatryanın ifasında "Qez Hamar" adı ilə YouTubedə yerləşdirilmişdi.

Qarmon ifaçısı Qagik Stepanyan "Bəs nə deyim", "Ay bəri bax", "Niyə yox deyirsən" və "Güman yeri var" Azərbaycan mahnılarının musiqisindən istifadə edərək popuri hazırlayaraq Youtubedə yerləşdirilmiş, lakin mahnıların adlarını və müəlliflərini göstərməmişdir.

Erməni əsilli Kipr müğənnisi Ovik Dəmirçyan da musiqisi bəstəkar Ələkbər Tağıyevə, sözləri şair Mikayıl Müşfiqə məxsus olan "Qal, sənə qurban" mahnısını mənimsəyərək erməni mahnısı kimi yunan dilində "Hara gedir" adı altında oxumuş və YouTube platformasında yaymışdır.

Agentlik tərəfindən görülən tədbirlər nəticəsində növbəti erməni oğurluqlarının qarşısı alınmış, erməni ifaçılar Artash Asatryanın, Tiqran Asatryanın, Qagik Stepanyanın və Ovik Dəmirçyanın erməni nümunələri kimi təqdim etdikləri yuxarıda göstərilən ifalar YouTube platformasından silinmişdir.

**24. Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin** illik fəaliyyətinin yekunları barədə Hesabatın 10-cu (**Əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması**) və 11-ci **("Sənaye mülkiyyəti sahəsində dövlət xidmətləri")** hissələrində geniş məlumat verilib.

Əlavə olaraq aşağıda "yaşıl patent"lərin alınması ilə bağlı hesabat ilində daxil olmuş iddia sənədləri, beynəlxalq sənaye nümunələri və beynəlxalq əmtəə nişanlarına Azərbaycan Respublikasının ərazisində hüqquqi mühafizə verilməsinə dair məlumatlar verilir:

**24.1.** Yaşıl enerji ilə bağlı patentlərin **("yaşıl patentlər"**) alınması üçün 2025-ci ildə daxil olmuş iddia sənədləri barədə **məlumatlar:**

| | **İxtira** |
|---|---|
| **a 2025 0148** | Mövcud istilik elektrik stansiyalarının effektivliyinin artırılması üçün buxarturbin qurğularının binar buxarqaz qurğularına çevrilməsi |
| **a 2025 0208** | İsti su və istilik təminatı üçün hibrid günəş-külək energetik qurğusu |
| **a 2025 0230** | Dəmir yolunda inteqrasiya edilmiş yaşıl enerji təminat sistemi |
| **a 2025 0241** | Günəş İstilik Elektrik Stansiyaları üçün təkmilləşdirilmiş Brayton tsiklinin konfiqurasiyası |
| **a 2025 0245** | OXYGENERATOR AZERBAİJAN – $Ca(OH)_2$ əsaslı sənaye qazlarının tutulması və PSA (Pressure Swing Adsorption) modullu yüksək-saflıqlı oksigen çıxışı verən inteqrə olunmuş sistem. |
| **a 2025 0248** | Tüstü qazlarından karbon qazının ($CO_2$) udulması üsulu |
| | **Faydalı model** |
| **U 2025 0009** | Sutəmizləyici qurğu |
| **U 2025 0046** | Kollektor və forsunka sistemi ilə qaz təmizləyici qurğu |

**24.2.** Beynəlxalq sənaye nümunələrinə patent alınması üçün 2025-ci ildə daxil olmuş iddia sənədləri barədə **məlumatlar:**

| | 2024-cü il | 2025-ci il |
|---|---|---|
| Daxil olan iddia sənədlərinin sayı | 160 | **185** |
| Ekspertizası müsbət nəticələnmiş iddia sənədlərinin sayı | 147 | **194** |
| Ekspertiza nəticəsində imtina verilmiş iddia sənədlərinin sayı | 0 | **3** |

**24.3.** Azərbaycan Respublikası ərazisində beynəlxalq əmtəə nişanlarına hüquqi mühafizə verilməsi üçün Beynəlxalq Büro tərəfindən daxil olmuş elektron bildirişlərin sayı və bununla əlaqədar **ekspertizanın nəticələri:**

| | 2024-cü il | 2025-ci il |
|---|---|---|
| Daxil olan iddia sənədlərinin sayı | 3160 | **3241** |
| Mühafizə verilmə barədə qərarların sayı | 2439 | **2548** |
| Mühafizə verməkdən imtina barədə qərarların sayı | 198 | **270** |
| Qismən mühafizə verilmə barədə qərarların sayı | 79 | **110** |

**24.4. Təlimlər. 25 fevral – 18 mart tarixlərində** Azərbaycan Tibb Universiteti və Azərbaycan Texniki Universitetinin əməkdaşları üçün “Patent hüququ obyektlərinə dair milli və beynəlxalq iddia sənədlərinin tərtib edilməsi və verilməsi” mövzusunda təlim təşkil olunub. Təlimi müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunub.

**10 aprel tarixində** Azərbaycan Texniki Universitetində “Sənaye mülkiyyəti obyektləri və onların qeydiyyatı” mövzusunda seminar təşkil olunmuşdur. Tədbir çərçivəsində Mərkəzin əməkdaşları “Əqli mülkiyyət obyektlərinin mahiyyəti üzrə ekspertizanın aparılması”, “Beynəlxalq və regional patentləşdirmə prosedurları”, “Patent hüququ obyektləri və patentin alınmasına dair iddia sənədinin tərtibatı və verilməsi” mövzularında təqdimatlarla çıxış ediblər. Seminarın sonunda Agentliyin İdarə Heyətinin sədri K.İmanovun müəllifi olduğu əqli mülkiyyətə dair kitablar Universitetin kitabxanasına hədiyyə edilib.

**22 aprel – 20 may tarixlərində** Fövqəladə Hallar Nazirliyinin Akademiyasının əməkdaşları üçün "Əqli mülkiyyətin əsasları" mövzusunda dərinləşdirilmiş təlim kursu təşkil olunub. Təlimi müvəffəqiyyətlə bitirən Akademiya əməkdaşlarına sertifikatlar təqdim olunub.

**8 may tarixində** Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında Mərkəzin mütəxəssislərinin iştirakı ilə Panel sessiyası keçirilib. Tədbir Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə və Tibb Universitetinin 95 illik yubileyinə həsr olunmuş “Tibb Festivalı” çərçivəsində keçirilib. Mərkəzin mütəxəssisləri patent hüququ, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və mühafizəsi, həmçinin kimya və tibb sahəsində ixtiralar barədə təqdimatlar edib, “Patent alınması proseduru və müraciət qaydaları”, “Tibb sahəsində sənaye mülkiyyəti obyektləri: ixtira, faydalı model və patentlər”, “İxtiraya dair iddia sənədlərinin Avrasiya Patent Təşkilatına təqdim edilməsi və müraciət formaları” barədə ətraflı məlumat veriblər.

**11 iyun tarixində** ÜƏMT-nin təşkilatçılığı ilə keçirilən “İqtisadi artım və rəqabət qabiliyyətlilik üçün əqli mülkiyyət aktivlərindən istifadə etmək məqsədilə Azərbaycanın aqrar-ərzaq sektorunda mikro və kiçik biznesin dəstəklənməsi” layihəsinə yekun vurulub. Layihə 2024-cü ilin aprel ayında start götürmüşdür və bir neçə mərhələdən ibarət olub. Layihənin məqsədi iqtisadi artım və rəqabət qabiliyyəti üzrə əqli mülkiyyət aktivlərindən istifadəyə dair Azərbaycanın aqro-qida sektorunda mikro, kiçik sahibkarlığın dəstəklənməsidir. Layihə çərçivəsində 2025-ci ilin 27-31 yanvar tarixlərində kiçik sahibkarlar üçün təlim təşkil edilmiş və iştirakçılara sertifikatlar verilmişdir. Tədbirin yekunlarına həsr olunmuş görüşdə benefisiarlara əmtəə nişanları və bir coğrafi göstəricinin qeydiyyatı haqqında şəhadətnamələr və sənaye nümunəsi patenti təqdim edilib.

**10 noyabr tarixində** Bakı Ali Neft Məktəbinin əməkdaşları üçün “Əqli mülkiyyətin əsasları” mövzusunda təlim təşkil olunub.

**21 noyabr tarixində** Bakı Dövlət Universitetinin (BDU) Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin Əqli mülkiyyətin qorunması şöbəsi ilə əməkdaşlıq çərçivəsində “Sənaye mülkiyyətinin obyektləri və onların qeydiyyatı” mövzusunda seminar keçirilib. Seminarda patent hüququnun obyektləri və iddia sənədlərinin hazırlanması ilə bağlı təqdimat keçirilib.

**25. Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin** 2025-ci ildəki fəaliyyətinin bəzi istiqamətlərini əhjatə edən məlumatlar bu hesabatın **16-cı** (Nəzarət markalarının tətbiqi), **17-ci** (Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi) və **18-ci** (Kollektiv idarəetmə təşkilatlarına metodiki dəstəyin göstərilməsi) hissələrində verilib.

Hesabat ilində Mərkəz tərəfindən görülmüş aşağıdakı işlər barədə məlumatlar əlavə olunur:

Bəstəkar Elza İbrahimova və xalq artisti Əlibaba Məmmədovun musiqi bəstələdiyi əsərlərdən istifadəyə görə istifadəçilər tərəfindən hesablanıb “Müəllif Hüquqları Uğrunda” İctimai Birliyin hesabına köçürülmüş müəllif qonorarları onların vərəsələrinin bank hesablarına köçürülməsi təmin olunub.

**15 may tarixində** Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Özbəkistan Respublikasının Ədliyyə Nazirliyinin 2024-2025-ci illər üçün birgə fəaliyyət planına uyğun olaraq hər iki ölkənin kollektiv idarəetmə təşkilatlarının (KİT) nümayəndələri iştirakı ilə birgə vebnar keçirilib.

Mərkəzin əməkdaşı Əsəd Əliyev Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının “Hüquq” fakültəsində “Məhkəmə, prokurorluq və vəkillik fəaliyyəti” ixtisası üzrə magistratura pilləsində üçillik təhsil proqramını uğurla başa vuraraq magistr dərəcəsi almışdır. Mərkəzin daha bir əməkdaşı isə ÜƏMT-ı tərəfindən təşkil olunan təlimlərdə iştirakina görə sertifikata layiq görülüb.

“Əqli Mülkiyyət” jurnalının 7-ci və 8-ci nömrələri çap edilərək oxucular arasında pulsuz yayılmışdır.

Hesabat ili ərzində Mərkəzə icra və ya məlumat üçün 236 sənəd daxil olub.

4 nəfər işə qəbul edilib, 4 nəfər isə başqa işə keçməsi ilə əlaqədar öz xahişi ilə işdən azad edilib.

**26. Texnologiyaların Kommersiyalaşdırma və Transferi Mərkəzi.** Avrasiya Patent Təşkilatı (APT) tərəfindən patent verilmiş qüvvədə olan prioritet ixtiraların kommersiyalaşdırılması və tətbiq olunması məqsədilə Elm və Təhsil Nazirliyi və Dövlət Neft Şirkəti üzrə təhlillər aparılmışdır. Təhlillərin nəticəsi olaraq Elm və Təhsil Nazirliyinə aid qüvvədə olan **114**, Dövlət Neft Şirkətinə aid qüvvədə olan **26** ixtira patentləri seçilmiş, həmin patentlər üzrə izahlı arayış hazırlanaraq Elm və Təhsil Nazirliyinə və Dövlət Neft Şirkətinə göndərilmiş, qorunma müddəti bitməmiş prioritet ixtiraların kommersiyalaşması və tətbiqinə dair çün təkliflər verilmişdir.

Mərkəz tərəfindən aparılan işlər çərçivəsində kommersiyalaşma potensialı olan **500** ixtira, **173** faydalı model, **130** sənaye nümunəsi və **501** startap layihəsi barədə məlumatlar sistemləşdirilərək Agentliyin vahid məlumat bazasına daxil edilmişdir. Sənaye və aidiyyəti dövlət qurumları, tədqiqat mərkəzləri, biznes inkubatorları ilə əməkdaşlığın real nəticələr verməsi məqsədilə altı qurumda görüşlər keçirilib və dəyərləndirilməsi üçün onlara təkliflər verilib, **6** kommersiya yüklü patentlərin pasportları hazırlanıb.

Texnologiyaların kommersiya potensialının qiymətləndirilməsi modelinə əsasən layihələrin kommersiya potensialının dəyərləndirilməsi məqsədilə "Azirrigation" ağıllı suvarma sistemi, "Görmə əngəlli insanlar üçün ağıllı əsa (The Right Way)", "Satelyzer" peyk data xidməti, "ZEEM" elektrikli yükdaşıma velosipedi, "Kuleko" külək enerji hasili qurğusu, "Üzvi gübrənin alınması üsulu" və "Qamışdan faner hazırlanması üsulu", "Ağıllı təhlükəsizlik dəbilqəsi" və "Pnevmatik külək nasos qurğusu" adlı layihələr barədə ilkin araşdırmalar aparılmışdır. Layihələrdən "Kuleko" külək enerji hasili qurğusu, "Görmə əngəlli insanlar üçün ağıllı əsa (The Right Way)", "İdman trenajoru", "Qamışdan faner hazırlanması üsulu" və "Üzvi gübrənin alınması üsulu" adlı patentlər, eləcə də hazırda patentləşdirilmə mərhələsində olan "Azirrigation" ağıllı suvarma sistemi adlı layihə ilə bağlı məlumatları özündə əks etdirən **bukletlər** hazırlanmışdır.

Qüvvədə olan patentlər arasından seçilmiş və kommersiya potensialı yüksək qiymətləndirilən "İdman trenajoru", "Görmə əngəlli insanlar üçün ağıllı əsa" və "Qamışdan faner hazırlanması üsulu" adlı patentlər barədə **məlumat kitabçası** hazırlanaraq, onların kommersiyalaşdırılması üçün maraqlı tərəflərin cəlb edilməsinə dəstək göstərilməsi məqsədilə **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına** göndərilmişdir.

**27. Agentliyin tabeliyində Respublika Elmi Texniki Kitabxananın** fondunun zənginləşdirilməsi və yeni elmi-texniki ədəbiyyatla təmin edilməsi sahəsində işlər davam etdirilmişdir. Hesabat ilində kitabxana fonduna **5521** nüsxə ədəbiyyat, patent sənədləri və dövri nəşrlər daxil edilmişdir. Onların təsnifatı aşağıdakı kimidir:

**1.** Kitab və kitabça - 609 nüsxə (Azərbaycan dilində-416, rus dilində-166, digər xarici dillərdə-27);

**2.** müxtəlif adda jurnallar - 547 nüsxə, **o cümlədən:**

- Müxtəlif xarici dillərdə jurnallar - 140 nüsxə;
- Patent sənədləri–278 adda ixtira sənədləri.

**3.** Qəzet–3921 nüsxə (Azərbaycan, rus və xarici dillərdə məcburi nüsxə);

**4.** Avtoreferat–432 nüsxə (103-ü q/profil);

**5.** Elmi-texniki informasiya xarakterli materiallar–12 nüsxə buklet.

**Hazırda RETK-nın ümumi fondu 13.944928 çap vahidindən ibarətdir. O cümlədən:**

**1**. Kitab və kitabçalar–294869 nüsxə (Azərbaycan dilində-10715, rus dilində-284154);

**2**. Dövri nəşrlər (jurnal)–584585 nüsxə;

**3**. Qəzetlər–15430 nüsxə;

**4**. Xarici dillərdə jurnallar – 109529 nüsxə;

**5**. Xarici dillərdə kitablar – 581 nüsxə;

**6**. Avtoreferatlar – 10862 nüsxə;

**7**.Elmi-texniki informasiya xarakterli materiallar–634314 nüsxə;

**8**. Patent sənədləri–12294758 nüsxə.

2025-ci ilin 12 ayı ərzində 17 elm və təhsil müəssisəsinə rəsmi məktubla müraciət edildikdən sonra 24 müəssisə tərəfindən kitabxanaya çox sayda kitab və jurnal (məcburi nüsxələr və ya hədiyyə olaraq) göndərilib.

2025-ci ildə **626** nüsxə kitab elektronlaşdırılıb. Elektronlaşdırılan jurnalların sayı isə **19633**-dür.

**166** nəfər oxucuya xidmət, o cümlədən onlayn xidmət göstərilib.

Kitabxanaya daxil olan sənədlər əsasında "İnformasiya bülleteni"nin hazırlanmasına başlanılıb.

Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsinin Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisasında təhsil alan **22** nəfər **IV** kurs tələbəsi kitabxanada istehsalat təcrübəsi keçmişdir.

**Abonentlərə xidmət.** Hesabat ilində oxucuların sayı 2962-ə çatmışdır. Onlayn rejimdə 379086 oxucu 17484 sayda ədəbiyyatdan istifadə etmişdir.

Ümumi istifadəçilər - **26367** nəfər;
Yeni istifadəçilər - **26282** nəfər;
Baxış sayı - **658700** nəfər.

Hesabat dövründə e-kataloqa yeni ədəbiyyatların əlavə edilməsi nəzarətdə saxlanılmış, e-kataloqun WEB-şlyuz Z39-50 modulunun kitabxana daxilində lokal şəbəkədə onlayn rejimdə **retk.copat** saytında fasiləsiz işi tənzimlənmişdir. Eyni zamanda, IRBIS 64+ (AKİS) serverində e-kitabxanaya mütəmadi olaraq tammətnli kitablar daxil edilmişdir.

Sistem yaddaşında 11 verilənlər bazası yaradılıb və ümumilikdə sistemin yaddaşına **359020** adda informasiya daxil edilib.

Fonda ixtiraya aid **278** adda təsvir fonda daxil edilmişdir:

Fonda daxil olan həmin sənədlərin əlifba sırası ilə müəllif kataloqu əməkdaşlarımız tərəfindən tərtib edilmişdir:

Patent Fondu "Sənaye Mülkiyyəti" rəsmi büllütenində dərc olunan iddia sənədləri və ixtiraların müəllifə görə əlifba göstəricisi" (1996-2000-ci illər üzrə 243, 2001-2005-ci illər üzrə 270, 2016-2020-ci illər üzrə 172 səhifəlik göstərici) çapa hazırlamışdır.

İl ərzində 63 oxucuya, o cümlədən 43 nəfər oxucuya onlayn xidmət göstərilib.

**RETK-nın Gəncə filialının** fondu 16877 çap vahidindən ibarətdir:

**1.** Kitab və kitabçalar–13499 nüsxə;
**2.** İnformasiya xarakterli məlumat kitabları–1673 nüsxə;
**3.** Ekspress-informasiya xarakterli –7 nüsxə;
**4.** "Sənaye mülkiyyəti" jurnalı–1083 nüsxə;
**5.** Kitab, jurnal və qəzet salnaməsi (letopislər)–615 nüsxə;

2025-ci il ərzində filialın oxucularının sayı artaraq 780-ə çatıb.

**28. Vətəndaşların qəbulu və vətəndaş müraciətlərinə baxılması.** Agentliyin və tabeliyində olan qurumların rəhbərləri və vəzifəli şəxsləri tərəfindən müntəzəm olaraq vətəndaşların qəbul keçirilmiş, onların qaldırdıqları problemlərin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür.

Hesabat dövründə Agentliyin Aparatına və tabeliyində olan qurumlara ümumilikdə **3203** sənəd daxil olmuşdur. Daxil olmuş sənədlərin 2817 icra olunmuş, 148 icradadır, 238 isə məlumat xarakterlidir.

Vətəndaşlar tərəfindən **1112** müraciət (**944** müraciət elektron qaydada göndərilmişdir), müxtəlif orqanlardan (qurumlardan) isə aidiyyəti üzrə baxılması üçün **5** müraciət daxil olmuşdur. Müraciətlər əsasən müəllif hüquqları, əsərlərin qeydiyyatı, sənaye mülkiyyəti (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı), dövlət qulluğu və kadr məsələləri, texnologiyaların kommersiyalaşdırılması və transferi, qonorar ödənişi, kitabların nüsxələrinə nəzarət markalarının alınması və s. məsələləri əhatə edir.

Müraciətlərdən **855**-i müsbət və **7**-i qismən həll edilib, **200** müraciətlə bağlı müvafiq izahat verilmiş, **7** müraciət baxılması üçün aidiyyəti orqanlara (qurumlara) göndərilmiş, **29** müraciət əsassız sayılmışdır və qanunvericilikdə müəyyən edilmiş qaydada **18** müraciət üzrə icra davam etdirilir.

Hökumət Evində yerləşən dövlət qurumları tərəfindən vətəndaşların qəbulunun vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədilə yaradılmış "Vətəndaşların Qəbulu Mərkəzi"ndə Agentliyinin əməkdaşları tərəfindən **748** vətəndaş qəbul edilmiş, onlara müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin qeydiyyatı, pozulmuş müəlliflik hüququ və əlaqəli hüquqların bərpası, şəhadətnamənin dublikatın verilməsi, nəzarət markalarının verilməsi, patentlərin alınması və əmtəə nişanlarının qeydiyyatı ilə bağlı məsləhətlər verilmişdir.

Hesabat dövründə vətəndaşlardan birbaşa Agentliyə 1112 müraciət (onlardan 944 elektron qaydada), 5 müraciət (5 müraciət elektron qaydada) isə aidiyyəti üzrə baxılması üçün digər təşkilatlardan daxil olmuşdur (cəmi 1117). Daxil olan müraciətlər əsasən müəllif hüquqları, əsərlərin qeydiyyatı, sənaye mülkiyyəti, maliyyə, dövlət qulluğu və kadr məsələləri, texnologiyaların kommersiyalaşdırılması və transferi, habelə qonorarların ödənilməsi, nəzarət markalarının verilməsi və s. məsələləri əhatə edir.

***2025-ci ildə Agentliyə daxil olan vətəndaş müraciətlərinə dair ümumiləşdirilmiş MƏLUMATLAR***

| Sıran-si | Əsas göstəricilər | Ümumi sayı | Ərizə | Şikayət | Təklif | Nəzarət | Təkrar | Kollektiv |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Daxil olan müraciətlər,** o cümlədən: | **1117** | **1116** | | **1** | | | |
| | - təşkilatın aparatına | **1049** | **1048** | | **1** | | | |
| | - tabe qurumlara | **68** | **68** | | | | | |
| 2 | **Müraciətlərin forması:** | | | | | | | |
| | - məktub | **168** | **167** | | **1** | | | |
| | - elektron məktub | **949** | **949** | | | | | |
| 3 | **Daxil olan müraciətlərin mövzuları:** | | | | | | | |
| | 1. Müəllif hüquqları ilə bağlı | **91** | **91** | | | | | |
| | 2. Sənaye mülkiyyəti ilə bağlı | **344** | **343** | | **1** | | | |
| | 3. Əsərlərin qeydiyyatı ilə bağlı | **649** | **649** | | | | | |
| | 4. Texnologiyaların kommersiyalaşdırılması və transferi məsələləri ilə bağlı | **1** | **1** | | | | | |
| | 5. nəzarət markaları ilə bağlı | **1** | **1** | | | | | |
| | 6. Maliyyə məsələləri ilə bağlı | **5** | **5** | | | | | |
| | 7. dövlət qulluğu və kadr məsələləri ilə bağlı | **18** | **18** | | | | | |
| | 8. Digər mövzular | **8** | **8** | | | | | |
| 4 | **Müraciətlərə baxılmasının vəziyyəti:** | | | | | | | |
| | - həll olunub | **855** | **854** | | **1** | | | |
| | - qismən təmin edilib | **7** | **7** | | | | | |
| | - rədd edilib (əsassız sayılıb) | **29** | **29** | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | - müvafiq izahat verilib | 200 | 200 | | | | | |
| | - icradadır | 18 | 18 | | | | | |
| | - baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilib | 7 | 7 | | | | | |
| | - baxılmamış saxlanılıb | 1 | 1 | | | | | |
| 5 | **Təşkilatda baxılmış müraciətlərə verilən cavabların sayı** | | | | | | | **428** |
| 6 | **Qəbul edilmiş vətəndaşların sayı,** o cümlədən: | | | | | | | **1449** |
| | - rəhbərin qəbulu (fərdi) | | | | | | | **4** |
| | - rəhbərin səyyar qəbulu | | | | | | | **-** |
| | - təşkilatın vəzifəli şəxslərinin qəbulu | | | | | | | **1239** |
| | - tabe qurumlarda | | | | | | | **206** |

**29. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri.** Hesabat ilində Agentliyə ayrılmış büdcə vəsaitləri qənaətlə xərclənmişdir.

Belə ki, Əqli Mülkiyyət Agentliyinin 2025-ci ildə əməyin ödənişi və sair xərcləri üzrə Dövlət büdcəsinin vəsaiti hesabına **2 892 090** manat və Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının əməyin ödənişi və saxlanilması xərcləri üzrə **1 095 594** manat (cəmi **3 957 684** manat) nəzərdə tutulmuşdur. Publik hüquqi şəxs olaraq Agentlik maliyyə imkanlarının yaxşılaşması, o cümlədən göstərdiyi xidmətlərdən əldə etdiyi vəsaitin artması hesabına tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanaya büdcədən ayrılan vəsaitdən 2025-ci il 1 aprel tarixindən sonra imtina etmiş, Kitabxananın əməyin ödənişi və saxlanması xərcləri Agentliyin əldə etdiyi gəlir hesabına maliyyələşdirilmişdir.

Respublika Elmi-Texniki Kitabxanasının əməyin ödənişi xərclərinin Agentliyin gəlirləri hesabına ödənilməsi nəticəsində nəzərdə tutulan illik büdcəsinin **802 787 manat** azaldılması təklif olunmuşdur.

2025-ci ildə Azərbaycan Respublikasının Dövlət büdcəsinnin vəsaiti hesabına Əqli Mülkiyyət Agentliyi üçün ayrılmış **3 957 684** manat, Elmi-Texniki Kitabxananın əməyin ödənişi və saxlanması xərclərinə görə **802 787** azaldılaraq **3 154 897,00** manat daxilində aparılmışdır. Qeyd edilən vəsait Agentliyin Aparatı üzrə tədbirlərinin həyata keçirilməsi ilə bağlı insan resurslarının idarə edilməsi və saxlanılması, həmçinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının 2025–ci il 1-ci rübü üçün saxlanmasına və fəaliyyətinin təmin edilməsinə görə istifadə olunmuşdur.

İllik smeta xərclərinə uyğun olaraq bu vəsaitin **2 210 175.10** manatı Aparatın işçilərinin əmək ödənişlərinə (o cümlədən, **1962694.33** manat ştatda olan işçilərin əmək haqqının ödənilməsi və **191717.50** manatı əməyin ödənişi ilə bağlı digər pul ödənişləri, **16260.00** manat hesablanmış aylıq pensiyanın 6 mislinin ödənilməsi, **24825.82** manatı ştatdankənar işçilərin əmək haqqının ödənilməsi üçün, **14677.45** manatı müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə istifadə olunub), **533180.03** manatı DSMF-na, işsizlikdən sığorta və icbari sığorta ayırmalarına və **5878.86** manat bank xidməti üçün xərclənmişdir. Agentliyin Aparatının sair xərcləri abunə haqqları və digər işlərin görülməsinə görə **140026.04** manat təşkil etmişdir. Agentliyin Aparatı üzrə xərclər cəmi faktiki büdcə vəsaiti hesabına **2 889 260.03** manat təşkil etmişdir.

Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası ştat vahidlərinin sayı 100-dür. Kitabxananın fəaliyyəti qismən dövlət büdcəsi hesabına maliyyələşdirilib.

Kitabxananın fəaliyyəti üçün **262 806.71** manat dövlət büdcəsindən ayrılan vəsait hesabına 2025-ci ilin 1-ci rübü maliyyələşdirilmişdir.

Kitabxananın illik smeta xərclərinə uyğun olaraq ayrılmış vəsaitdən əmək haqqı ödənişlərinə **210353.21** manat (o cümlədən, **173436.17** manatı ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, **35235,66** manatı sair pul ödənişlərinə, **1681,38** manat müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə), **50664,86** manatı DSMF-na, icbari tibbi sığortaya və işsizlikdən sığorta haqqına, **575,35** manatı bank xidmətləri xərclərinə, **1213,29** manatı kitabxananın saxlanması üçün digər işlərin görülməsinə xərclənmişdir.

Kitabxananın cəmi faktiki xərcləri büdcə vəsaiti hesabına **262806.71** manat olmuşdur.

Faktiki büdcə xərclərinin yekun cəmi **3 152 066,74** manat, 01.01.2026-cı ilə büdcə qalıq vəsaiti **2830.26** manat olmuşdur.

Əqli Mülkiyyət Agentliyinə 2025-ci ildə ümumi daxilolma **5 414 750** manat olmuşdur. O cümlədən, Madrid Sazişinə uyğun olaraq ÜƏMT-nin Maliyyə Xidmətindən Agentliyin hesabına 2025-ci ildə **1 686 960,00** manat (**782267,60** İsveçrə fr), Haaqa Sazişinə uyğun olaraq isə **31852,00** manat (**14770,00** fr) vəsait daxil olmuşdur, Azərbaycan ərazisində qüvvədə olan Avrasiya patentlərinin qüvvədə saxlanılması üçün Avrasiya Patent Təşkilatının Avrasiya Patent Bürosundan Agentliyin hesabına daxil olan vəsaitin məbləği **1719433,00** manat (**82111206,00** rub) təşkil etmişdir, "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərə görə" **1964646,00** manat, audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə yapışdırılması üçün nəzarət markalarının alınmasına görə **591,00** manat, dövlət varidatı elan edilmiş əsərlərdən isifadəyə görə ABŞ-dan **3345** manat (**1968** $ ABŞ), "Rəqəmli və Audiovizual Yayım Sənayesi" İctimai Birliyi tərəfindən hesabat ili ərzində müəlliflər və əlaqəli hüquq sahibləri üçün yığılan qonorardan 5% illik haqq kimi **7923,00** manat.

Agentliyin əldə olunan vəsait hesabına cəmi illik yekun xərci 2025-ci ildə **3975585,58** manat olmuşdur. O cümlədən, Aparatının işçilərinə (mükafat, maddi yardım, əmək haqqına əlavələr və onlardan məcburi tutulmalar, işçilərin icbari sığortası) **438601.34** manat, DSMF (0,5% və 22%), icbari tibbi sigorta **102501.49** manat, ezamiyyə və təh-təl hesab xərclərinə **33633.25** manat və işçilərin icbari sığortasına **7647.41** manat xərclənmişdir.

Agentliyin Mərdanov qardaşları, 124 ünvanında yerləşən daşınmaz əmlakı ilə bağlı xərclər **109692.47** manat olmuşdur (o cümlədən: mühafizə xərci - **69835.04** manat, elektrik enerjisindən istifadəyə görəi – **21011.69** manat, təbii qazdan istifadəyə görə- **7865.81** manat, içməli və çirkab su haqqı – **6310,00** manat, kommunal xidmətlər üçün xərclər– **1473.12** manat, liftə texniki baxış xərci - **1199.98** manat və əmlak sığortası **1996.83** manat). İl ərzində avadanlıqların alışına **5140.01 manat**, digər maşın və avadanlığa və xidmət göstərilməsinə görə **3910.95** manat, qəzet və jurnallara abunə haqqı, sayt, sms paket yazılmasına görə **13729.60** manat, dəftərxana xərclərinə **6759.03** manat və təsərrüfat xərclərinə **1018.83** manat vəsait sərf olunmuşdur.

Nəqliyyat vasitələri ilə bağlı xərclər **63387.54** manat (avtomobillərin sığortası, təmiri, yanacaq haqqı, rüsum), xidməti minik avtomobilinin alınması **238858.88** manat, kommunal xidmətləri üzrə xərclər (Hökumət evi üçün) **80729.53** manat, cari təmir və digər təmir xidmət xərcləri **3506.37** manat, rabitə ilə bağlı xərclər **25737.64** manat, internet xidməti haqqının ödənilməsi - **4354.80** manat, poçt və yük daşıma xidməti üzrə xərclər **2099.03** manat, proqram təminatlarına xidmətə görə - **14160.00** manat, idarənin digər xərcləri - **44564.12** manat (suvenirlər, kitab alışı,mətbəə xərci,reklam, tədbirlərin keçirilməsi, dövlət qulluğu üzrə müsabiqə və müsahibə mərhələsi ilə bağlı xərclər, audit xidməti, hüquq məsləhəti ucun rüsum ödənişi, təhsil və s.), bank xərcləri **3877.28** manat təşkil etmişdir. İddiaçılar tərəfindən səhv olaraq ödənilən **4681.00** manat vəsait onların yazılı müraciətləri əsasında özlərinin bank hesablarına qaytarılması təmin edilmişdir.

“Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanının 4.8-ci bəndinə uyğun olaraq, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin 2025-ci il üçün saxlanması xərcləri Agentliyin fəaliyyəti nəticəsində əldə olunan vəsait hesabına ödənilmişdir. O cümlədən, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin əməyin ödənişi və saxlanılması xərcləri **378068.95** manat, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin əməyin ödənişi və saxlanılması xərcləri **1 494 461.47** manat, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası üçün əməyin ödənişi və saxlanmsı xərcləri **777389.77** manat, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Texnoloqiyaların Kommersialaşdırılması və Transferi Mərkəzinin əməyin ödənişi və saxlanılması xərcləri **117074.82** manat təşkil etmişdir.

Hesabat ilində Agentlik “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri göstərdiyinə və hüquqi hərəkətləri həyata keçirdiyinə görə dövlət büdcəsinə **232197.00** manat dövlət rüsumu köçürülmüşdür.

Agentlik tərəfindən qanunvericiliklə müəyyən edilmiş xidmətlərin göstərilməsinə və digər işlərin yerinə yetirilməsinə görə 2025-ci ildə daxil olan xidmət haqlarının məbləği **5 402 890** manat, xərclər isə **3 720 381** manat olmuşdur. Əldə edilmiş **1 682 509** manat gəlir hesabına Agentliyin aparatının yerləşdiyi inzibati binada və onun tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının uzun illər təmir edilməmiş Gəncə filialı üçün ayrılmış xidməti və təsərrüfat otaqlarında təmir - bərpa işlərinin aparılması nəzərdə tutulur.

**Müəllif qonorarı.** Kollektiv idarəetmə təşkilatlarının fəaliyyət göstərmədiyi sahələrdə Agentlik bu işi təşkil etmiş, müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına metodiki dəstək göstərmiş, onların fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik göstərilmişdir. Müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində (teatr-tamaşa təşkilatlarında əsərlərdən istifadəyə görə) **232391.38** manat müəllif qonorarı yığılmış və təyinatı üzrə bölgüsü aparılmışdır. Bunlardan Azərbaycan müəlliflərinə **176788.17** manat, xarici müəlliflərə **20556.27** manat, Dövlət varidatı olan əsərlərə görə **12787.92** manat, gəlir vergisi **21247.32** manat, bank xidməti **1011.70** manat təşkil edir.

Agentliyin hesabına daxil olmuş **209579.77** manat müəllif qonorarından köçürmə yolu ilə **132481.80** manat Azərbaycan müəllifllərinə, qonorarlrdan tutulmuş gəlir vergisi **21247.32** manat vəsait dövlət büdcəsinə, **463.70** manat bank xidmətinə görə və **634.50** manat əmək haqqı kartlarının sifarişi üzrə köçürülmüşdür.

Son illər xidmət edilən müəlliflərin sayında davamlı olaraq artım müşahidə olunmuşdur. Məsələn, 2018-ci ildə xidmət göstərilən müəlliflərin sayı **3380** nəfər, 2019-cu ildə **3430** nəfər, 2020-ci ildə **3470** nəfər, 2021-ci ildə **3518** nəfər, 2022-ci ildə **3549** nəfər, 2023-cü ildə **3607** nəfər, 2024-cü ildə isə **4213** nəfər, 2025-cü ildə isə **4230** nəfər olmuşdur.

Hesablanmış qonorarlar barədə **681** nəfər müəllifin müraciətlərinə baxılmış və onlara müvafiq izahatlar verilmişdir. Qonorar hesablanmış **537** nəfər müəllifə çatacaq qonorarın elektron kartlar vasitəsi ilə ödənilməsi təmin edilmişdir.

---